Sevgi və bilgi ilə
Varlığın qəlbinə...

Yəsəvi Atadan Hekayələr

Hayati Bice



İPƏKYOLU NƏŞRİYYATI

Kitabın orijinal adı:
Yesevi Atadan Öyküler

Müəllif:
Dr. Hayati BİCE

Nəşrə Hazırlayan:
t.f.d Abbas QURBANOV

Redaktor:
Əziz SULTANOV

Rəssam:
Şafak TAVKUL

Qapaq tərtibatı
Burak ANILIR
İlker KURTULDU

Dizayn:
Nicat QƏRİBOV

Bakı-2018; İpəkyolu Nəşriyyatı: 239
İSBN: 978-9952-8297-7-8

Kitabda ifadə olunan mövqe və fikirlər müəllifə aiddir;
Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) və
Gəncliyə Yardım Fondunun mövqeyini əks etdirən mətnlər
olaraq qiymətləndirilə bilməz.

Bakı Şəhəri Səbail Rayonu
Cəfərov Qardaşları, 16.
Tel: (+994 12) 492 72 24
Mobil: (+994 50) 302 90 08
Web sayt:
www.ipekyolunesriyyati.az
Elektron poçt:
ipekyoluneshriyyati@gmail.com

İPƏKYOLU NƏŞRİYYATI

Yəsəvi Atadan Hekayələr

Dr. HAYATİ BİCE

TİKA

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi Bakı Proqram Koordinatorluğu

Azərbaycan Respublikası Gəncliyə Yardım Fondu

Bu kitab, Türkiyə Respublikası Baş Nazirlik Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Gəncliyə Yardım Fondu əməkdaşlığında 23 aprel Uşaq Bayramı münasibəti ilə həyata keçirilən "***Kitab Tutan Balaca Əllər***" layihəsi çərçivəsində çap olunmuşdur.

Dr. Hayati Bice

1959-cu ildə Tokatda dünyaya gəlib. Əslən Qafqaz Qaraçay türklərindəndir. 1982-ci ildə Ankara Universitetinin Tibb fakültəsini bitirib. Uzmanlıq təhsilini eyni fakültənin Uşaq Sağlamlığı və Xəstəlikləri klinikasında 1989-cu ildə tamamlayıb. 1994-1995-ci illərdə Xoca Əhməd Yəsəvi Beynəlxalq Türk-Qazax Universitetində müəllim kimi fəaliyyət göstərmişdir. Hal-hazırda da peşəkar həkim kimi işləyir.

Tibb sahəsində və sosial məsələlərdə bir çox araşdırmaları müxtəlif elm, mədəniyyət jurnalları və qəzetlərdə çap olunub. 1990-cı ildə Ankarada nəşrə başlayan və iki cildi nəşr olunan Türk Yurdları adlı jurnalın idarəsini öz üzərinə götürmüşdür.

Müxtəlif türk ləhcələri ilə yanaşı, ingilis dilini də bilən Dr. Hayati Bice evli və üç uşaq atasıdır.

Nəşr olunan kitabları:

Türkiyə Dəyanət Vəqfi nəşrləri arasında çap edilən əsərləri:

Xoca Əhməd Yəsəvidən "Divani-Hikmət" (VI Nəşr-2005, "Qafqazdan Anadoluya köçlər" (1991) və "Ananın bələdçisi" V nəşr-2005.

"Antimikrob müalicə rəhbəri" (Köklem yay, 1990).

"Xoca Əhməd Yəsəvi türbəsi» (Mədəniyyət Nazirliyinin nəşri, II nəşr: Türk Eximbank 1993.

"İşarə Daşları" (İnsan yay, 2006), Piri Türküstan Xoca Əhməd Yəsəvi (H Yay, 2014), Türküstan yuxusu (H Yay, 2014), Günümüzün eşq yolçusuna divani-hikmət (H Yay, 2015).

Əlaqə: Atahayati@gmail.com

MÜNDƏRİCAT

Başlarkən VII

Aslan Babanın Xurması 3

Yəsəvinin Gövhər Bacısı 17

Sultan Səncərə Dua 33

Yəsəvinin Sarı Öküzü.....45

Hakim Atanın Hikməti..... 53

Zəngi Atanın Sürüsü.....63

Başlarkən

Rəhman və Rəhim olan Allahın adı ilə...

Kökləri təqribən min il əvvələ qədər uzanan Yəsəvilik ənənəsində bu il Əhməd Yəsəvi həzrətlərinin 850-ci ölüm ildönümüdür. Bu münasibətlə bütün dünyada anılan Xoca Əhməd Yəsəvinin həyat hekayəsinin əzbərlənib uzun qış gecələrində soba başında halqa şəklində oturan söhbət məclislərində müzakirə edilməsi, Əhməd Yəsəvi ilə təqibçilərinin həyatı haqqındakı mənqibələrin nəsildən-nəsilə ötürülməsi böyük əhəmiyyət daşıyır.

Bundan ilham alaraq **"Yəsəvi Atadan hekayələr"** adını verərək qələmə aldığım bu hekayələrlə tarix içərisində Yəsəvi xan olaraq bilinən, müdrik böyüklərimiz tərəfindən nəql olunaraq günümüzə qədər gəlib çatan rəvayətləri yeni nəsillərə çatdırmağı arzu etdim. Əsrlər içərisində zəngin mirasa sahib olan Yəsəvilikdən hər yaş insanının nəsibini almasını istədim.

“Yəsəvi Atadan” bəhs edən bu əsərdə onun mənqibələri əsas alınmışdır. Tarixi həqiqətləri bir yana, hər bir hekayədə müasir insanların da ibrət almasına səbəb olacaq mesajlar vardır.

Piri Türküstan olaraq bilinən Əhməd Yəsəvi ilə, bəlkə də ilk dəfə tanış olacaq türk övladlarına bu cür ibrətli hekayələrin çatmasını təmin edən “H” nəşriyyatına təşəkkür edirəm.

Bu əsərin Piri Türküstan Xoca Əhməd Yəsəvinin yolunu izləmək istəyən nəsillərə işıq tutmasını niyaz edirəm.

Allah yar və yardımçımız olsun!

01.03.2017, Ankara
Dr. Hayati Bice

Bu kitabımı
Canım oğlum və iki qızımın
Allah rizasına uyğun şəkildə yaşamaları,
Əhməd Yəsəvi həzrətlərinin himmətinə
nail olmaları və haqqımızda xeyrə vəsilə
olması diləyimə həsr edirəm.

Dr. Hayati Bice

I
Aslan Babanın Xurması

Mövsüm sözün əsl mənasında qış idi. Ankarada soyuq qış gecələri hökm sürürdü. Hava tezdən qaraldığı üçün Qaraçay ailəsi yeməyə evin kişisi işdən gələn kimi otururdu. Bu axşam da ailəliklə "bismillah" ilə başlayan yemək dua ilə bitirilmişdi. Yeməkdən sonra ev əhli sanki öz dünyalarına dalmışdılar. Ailənin ən böyük övladı olan Anadolu liseyinə girmək üçün hazırlaşan on dörd yaşındakı Əhməd Alp-Erkin salondakı kompyuterin başına keçmişdi. Evin iki qızı isə böyük masada dərslərinə hazırlaşmaqla məşğul idi. Ailənin böyüyü uşaqların dərs oxumasına mane olmamaq üçün qonaq otağına keçmişdi. Təqribən iki saat davam edəcək "axşam xəbərlərini" seyr etmək üçün televizor kanallarını bir-bir çevirərkən bir yandan da yoldaşının gətirdiyi qəhvəni udumlayırdı. Ərinin axşam adəti halına gələn qəhvəsini verdikdən sonra evin xanımı mətbəxdəki işlərlə məşğul oldu.

Bu danışılanlar Qaraçay ailəsi üçün adi bir yanvar gecəsi idi…

Anidən evin bütün işıqları söndü. Son zamanlarda işıqların sönməsi adi hal almışdı. Buna səbəb elektrik naqillərinin qış səbəbi ilə son dərəcədə yüklənməsi idi. Bu kəsintilər bəzən beş dəqiqə davam edərkən, bəzən də bir saata kimi uzana bilirdi.

İşıq gedən kimi evin böyük qızı Fatimə Dila əlindəki şam ilə atasının yanına gəldi. Şamı hər vəziyyətə hazırlıqlı olan ana yandırmış olmalı idi. Atasının yanına gələn Fatimə Dila ikinci sinifdə oxuyurdu. Uşaqlar arasında kitab oxumağa ən həvəsli olan da o idi. Uşaq kitabları ilə yanaşı, atasının zəngin kitabxanasındakı kitabları da oxumağa başlayan Fatimə Dila gözəl təbəssümü ilə atasının qarşısına keçdi və:

“Çoban ata, haydı, bizə Aslan babanın xurmasından danış” – dedi.

Fatimə Dila atasının kitablarından biri olan Mustafa Nəcati Səbətçioğlunun “Can ocağında bişən aş” adlı romanından türk dünyasının böyük şəxsiyyətlərindən biri olan Əhməd Yəsəvi haqqında oxumuş, bu səbəblə də kitabdakı bəzi mövzular haqqında atasına suallar vermişdi.

Bu suallardan ən çətini Əhməd Yəsəvinin ilk müəllimi olan Aslan babanın hələ yeddi yaşında olan Əhmədi tapıb Peyğəmbərimizin əmanəti olan

xurmanı ona verməsi ilə əlaqəli olanı idi. Fatimə Dila dinlə əlaqəli dərsdə Peyğəmbərimizin 632-ci ildə dünyaya gözlərini yumduğunu öyrənmişdi. Əhməd Yəsəvinin vəfat tarixinin də 1166-cı il olduğunu atasının kitabxanasının iki böyük rəfini tutan Türkiyə Dəyanət Vəqfinin İslam ensiklopediyasındakı Əhməd Yəsəvi maddəsindən öyrənmişdi. Dünyadan köçmələri arasında tam olaraq 534 il olan iki nəfər arasında belə bir hadisə necə mümkün olmuşdu?! Bu ona çox qəribə gəlmişdi.

Atasına daha əvvəl də bu sualı ünvanlamışdı. Lakin o əsnada atasının başı bir araşdırmaya qarışdığı üçün ona:

"Bunu daha uyğun bir zamanda cavablayacağıma söz verirəm. İnşallah, ilk fürsətdə bu mövzudan sənə bəhs edəcəyəm" – demişdi.

Atasının verdiyi sözlərə hər zaman əməl etdiyini bilən Fatimə Dila bu qaranlıq qış gecəsinin həmin mövzu üçün ən münasib zaman olduğunu düşündüyünə görə onun önündə şirin təbəssümlə gözləyirdi.

Elektrik yenidən gəldikdə ziyan dəyməsin deyə televizoru tamamilə söndürdü.

"Haydı, digər uşaqları da çağır ki, sizə Aslan babanın xurmasının hekayəsini danışım" – dedi.

Fatimə Dila buna çox sevindi.

"Atacan! Biz onsuz da hazırıq. Hətta mətbəxdəki işi yarımçıq qalan anam belə səni gözləyir".

***

İslami elmləri bir ilahiyyatçı qədər dərin bilməsə də, bu sahədə xeyli biliyə sahib idi. Onun ailəsindəki ləqəbi "Çoban ata" idi. Uşaqları və xanımı ilə söhbət etdiyi bir gün Peyğəmbərimizin *"Hamınız çobansınız və güddüklərinizdən məsulsunuz"* – hədisini dilə gətirmiş və hər ailə rəhbərinin *"ailəsinin çobanı"* olduğunu vurğulamışdı.

Bu hadisədən sonra xanımı *"O halda sənə bundan sonra "Çoban ata" deyək"* – dedi. Səsvermə ilə "Çoban ata" ləqəbi evdəkilərin dördü tərəfindən də qəbul edilmişdi. Bu xüsusda onun nə düşündüyü soruşulmadan qərar verilmişdi. *"Ailəmizin atasının adı bundan sonra Çoban atadır"*.

Çoban ata adını ərinə yaraşdıran evin xanımının yaddaşında bu ad, evliliklərinin ilk günlərində bir tur vasitəsi ilə getdikləri Orta Asiya gəzintisi zamanı ziyarət etdikləri Daşkənd yaxınlığında olan Çoban Ata türbəsindən qalmış olmalı idi.

Evin kişisinin oturduğu yer salonun baş tərəfində idi. İki bacı bir yerdə, ana ilə oğlu da bir yerdə oturmuşdular. Salonda yanan üç ədəd şam otağı işıqlandıra bilirdi. Evin xanımı bu gecəki söhbətin adət halına gələcəyini bilmədən söhbətdən sonra

yemək üçün meyvə də hazırlamışdı. Hər şey sözün əsl mənasında gözəl idi...

Yerinə keçən Çoban ata sözə haradan başlayacağını bilmədiyi üçün bir müddət səssiz qaldı. Daha sonra hekayəyə başlamasına səbəb olsun deyə Fatimə Diladan soruşdu:

"Ortancıl quzum, söylə görüm, nədən danışmağımı istəyirdin?"

Fatimə Dila nə istədiyini bildiyi üçün dərhal sözə başladı:

"Hansı ki, Aslan baba bağçada oynayan uşaqları görüb yanlarına gəldikdə yeddi yaşındakı Əhməd Yəsəvi dərhal qarşısına çıxıb *"Ağsaqqal, əmanətimi verin"* – demişdi, onu soruşmuşdum. O "əmanət" nə idi? Əmanəti kim yollamışdı? Və ən vacibi, nə üçün bir xurma dənəsi olan o əmanət Əhmədə yollanmışdı?.."

Çoban ata ilk dəfə Mehmet Fuad Köprülünün "Türk ədəbiyyatında ilk mütəsəvviflər" adlı möhtəşəm kitabından oxuduğu bu mənqibəni ən kiçiyi doqquz, ən böyüyü on dörd yaşında olan uşaqlara necə danışa biləcəyini düşündü və önündəki masada olan stəkandan bir neçə udum su içdikdən sonra sözə başladı:

"Aslan baba əslən ərəb əsilli bir ailədəndir. Orta Asiyaya İslamı yaymaq üçün gələn bir babanın doqquzuncu nəsildən nəvəsi imiş. Doqquz nəsil

əvvəlki babası bölgədəki xanlardan birisinin qızı ilə evlənərək Seyhun çayı kənarındakı Cənd şəhərinə yerləşmişdir. Bu Cənd şəhərini unutmayın, uşaqlar! Səlcuqlu dövlətini quran Çağrı və Toğrul bəyin ailəsi də bu şəhər xalqındandır.

Cənd şəhərində məskunlaşan ailə İslamın o diyarda yayılması üçün çalışmış və o bölgədə *"Xocalar"* olaraq tanınmışlar. Bu ailənin doqquzuncu nəsildən nəvəsi olan Aslan baba bir gecə yuxusunda Peyğəmbərimizlə birlikdə bir savaşa getdiyini görmüşdü. Şəhəri fəth etdikdən sonra səhabələri ilə bir kənarda söhbət edərək önlərindəki qabda olan xurmalardan yeyərkən bir səhabənin əlindəki xurma yerə düşmüşdü. Aslan baba bu şəxsin Peyğəmbərimizin dəyər verdiyi səhabələrindən Salmani Farisi olduğunu "Ey Salman, o xurma sənin deyil, sonrakı ümmətimdən Əhməd adlı birinin qismətidir. Yemə onu..." – deməsi ilə anlamışdı. Yuxuda səhabələri ilə birlikdə olan Peyğəmbərimiz bir az uzaqda dayanan Aslan babanı yanına çağırmış, yanında oturtmuş, üzərinə kəlmeyi-tövhid olaraq bilinən *"Lə iləhə illəllah"*ı yüz, ləfzi-cəlal olaraq bilinən *"Allah"* kəlməsini min bir dəfə oxuduğu xurmanı uzadıb: *"Aslan, bu xurmanı götür, sonrakı ümmətimdən* Türküstanlı İbrahim *Atanın* oğluna mənim əmanətim olaraq çatdır..." – buyurmuşdu. Aslan baba həyəcanla ağzına atdığı xurmanı dərhal çıxararkən çəkinərək "Ya Rəsulallah, bəs o uşağı necə tapacağam?" – deyə soruşmuşdu.

Peyğəmbərimiz ağappaq dişləri görünəcək şəkildə gülümsəyərək cavab vermişdi: *"İbrahim Ata* Türküstanda Yəsi ilə Sayram arasında bir yerdədir. Oğlu bu an yeddi yaşındadır. Sən axtarsan, *o, qarşına çıxacaq və əmanətini səndən istəyəcəkdir. Sən narahat olma"*.

Aslan baba yuxusunun tam bu anında həyəcanla oyanmış, həmin əmanət xurmanın ağzında o zamana qədər heç bilmədiyi bir dad buraxdığını hiss etmişdi. Bu xurma ilə ağzına yayılan dad o qədər gözəl gözəl imiş ki... Qəlbini isə o günə qədər heç hiss etmədiyi bir rahatlıq bürümüşdü. Qalxıb iki rükət şükür namazı qılmış, daha sonra Cənd məscidinə gedərək camaat ilə sübh namazını qılmışdan, sonra evinə geri qayıtmışdı. Qırx illik həyat yoldaşını qarşısında oturdaraq: *"Ey xanımım, bundan belə mən səfər etməli olacağam. Səni əvvəla Allaha, sonra ailəmizə əmanət edib yollara düşməyin vaxtıdır. Məndən* səbəbini əsla soruşma... Qismət olsa, qayıdaram. Qayıtmasam, *haqqını halal eylə"* – demiş və heybəsinə yığdığı azuqə ilə yola rəvan olmuşdu. O dövrlərdə həcdən gələn hacıların ən dəyərli ərməğanı olan Mədinə xurmasından bir dənəni də qurşağına diqqətlə yerləşdirmişdi. Seyhun çayı boyunca Oğuz boylarının obalarında qonaq qalaraq bir ay içərisində Yəsi şəhərinə çatmışdı.

Yəsi şəhərindəki Xəlvət məscidində cümə namazını qıldıqdan sonra məscidin imamı Əbdülqa-

dir ilə söhbətləşərək İbrahim xocanı soruşmuşdu. Sayram şəhərində təqvası ilə tanınan bir ailədə bu adda bir mədrəsə xocası olduğunu öyrənmişdi. Bu, onun üçün gözəl başlanğıc olmuşdu.

Belə gözəl bir məlumat əldə etmənin sevinci ilə yola rəvan olan Aslan baba hər namazı başqa bir kənddə qılaraq yoluna davam etmişdi. Digər cümə gününün sübh azanı oxunmağa başlarkən Sayram şəhərinə çatmışdı. Sübh namazını təkbaşına qıldıqdan sonra ilk rastlaşdığı evin qapısını döymüşdü. O diyarın mühüm mərkəzlərindən hesab edilən Sayram şəhərinin əhalisi oradakı çoxsaylı türbələri ziyarət etmək üçün gələn dərvişlərə adət etmişdi. Evin sahibi uzaq diyardan gəldiyi bilinən, ağ saqqalı qarabuğdayı sifətinə çox yaraşan Aslan babanı evinin qonaq otağına dəvət etmişdi. İçməsi üçün ona təzə sağılmış inək südü təqdim edildi. Orada istirahət etməsi üçün hər cür şərait yaradıldı. Südü içərkən evin sahibi ilə söhbət edən Aslan baba Sayram şəhərinin aşağı məhəlləsindəki mədrəsədə iki oğlu olan İbrahim adlı bir xocanın olduğunu öyrəndi. Və anladı ki, Yəsi şəhərindəki Xəlvət məscidinin imamı Əbdülqadir əfəndinin verdiyi məlumat doğrudur.

Lakin yeni bir problem ortaya çıxmışdı. Özünə əmanət edilən xurmanın sahibi İbrahim xocanın iki oğlundan hansı idi?! Əlbəttə ki, biləcəkdi…

Qonaq otağının bir kənarında özü üçün sərilən yatağa uzanan Aslan baba duha namazını qıldıqdan sonra iki saata qədər yatmışdı. Oyandıqda dəstəmazını təzələmək üçün ev sahibinin qapının arxasına su tası və su qoyduğunu gördü. Dəstəmazını təzələyib hazırlaşaraq həyətə çıxdı.

Həyətdə onun üçün səhər yeməyinin hazırlandığını gördü. Səxavətli ev sahibinin dəvəti ilə səhər yeməyinə oturdu. Yeməkdən sonra birlikdə cümə namazı üçün iki kilometr uzaqlıqdakı cümə məscidinə getdilər. Cümə namazının xütbəsini oxumaq üçün minbərə çıxmağa hazırlaşan imamı göstərən ev sahibi qonağının qulağına əyilərək fısıldadı: "İbrahim xoca bu şəxsdir…"

Aslan baba xütbə oxunarkən diqqətlə imamı izlədi, düşündü, ölçüb-biçdi, qəlbinin səsini dinlədi: *"Bəli, bu imam mənim axtardığım şəxs ola bilər"*.

Cümə namazından sonra Türküstanda ənənə halına gəlmiş adət üzrə namazdan sonra əl ilə görüşərək müsafaha etmələrinin bitməsini gözlədilər. Məscid, demək olar ki, tamamilə boşaldıqda Aslan baba imama yaxınlaşıb salam verdi: *"Əssələmu aleykum, İbrahim Ata Necəsən?"*

İmam yad olduğu dərhal bilinən bu nurani ağsaqqalın özünə adı ilə xitab etməsindən təəccüblənməli olduğu halda sanki gözlədiyi biri gəlmiş kimi qollarını iki yana açaraq "*Və aleykum səlam və rahmətullah"* – deyərək salamını aldı. Bu nurani

ağsaqqal ilə qırx ildir görüşmədiyi bir dostuna qovuşmuş kimi sevgi ilə qucaqlaşdı.

Aslan babanı məscidə gətirən şəxs bunların belə mehriban olduğunu görüb artıq vəzifəsini yerinə yetirdiyini düşünərək onlardan izin istəyərək geri qayıtdı.

Aslan baba nə üçün gəldiyini bildirdi: *"Sizin bir oğlunuz var, o mənə Peyğəmbərimiz tərəfindən bildirildi. Onu mənə göstərərsizmi?"*

İbrahim xoca sanki bu xəbəri gözləyirdi. Lakin son bir dəfə bu qonağı yoxlamaq istədi. Bunun üçün də "oldu" – deyərək qonağın evinə gəlməsini təklif etdi.

Evi məscidin tam yanında idi. Qapısını üç dəfə döydü. Qapını üç dəfə döyməklə yanında bir qonağının olduğunu evdəkilərə xəbər verirdi. Bu, ailə arasındakı xəbərləşmə şəkli idi. Qapı üç dəfə döyüldükdə evə qonaq gəldiyi bilinirdi.

İbrahim xocanın həyətinin bir kənarında "taxt" adlanan oturacaq vardı. Qonağı burada oturdan İbrahim xoca mətbəxə keçdi. Bir müddət sonra çay və quru meyvələrlə geri qayıtdı.

Bu meyvə quruları ilə çayını içməyə başlayan Aslan baba ətrafı diqqətlə izləməyə başladı. İbrahim xoca izin istəyərək *"Siz çayınızı için. Mən də oğlumu gətirib gəlim"* – dedi. Çayını bitirmədən həyət qapısında ata ilə oğulu görən Aslan baba

həyəcanlandı. İbrahim xoca və onu hörmətlə təqib edən oğlu yaxına gəldilər. İbrahim xoca oğlunu təqdim etdi. İşarə ilə oğlundan qonağın əlini öpməsini istədi.

Aslan baba bığ yeri yenicə qaralmağa başlayan on iki yaşındakı yeniyetmənin özünə yuxuda əmanət edilən şəxs olduğundan əmin ola bilmədi. Yuxusunu xatırladı. Yeniyetmədən bir işarə gəlməsini gözlədi. Lakin əbəs...

Aslan babanın qəlbindən bu hisslər keçərkən İbrahim xoca da kənardan qonağını izləyirdi. Ağsaqqal başını önə, qəlbinə doğru əydi və sanki qəlbinin dərinliklərinə daldı. Bir neçə dəqiqə belə keçdi. Daha sonra başını qaldırıb gözlərini açan Aslan baba: *"İbrahim xoca digər oğlunuzu da görmək istəyirəm"* – dedi. Bu istəyə təəccüblənən İbrahim xoca: *"Lakin digər oğlum çox kiçikdır"* – dedi. Sonra yanındakı oğlundan soruşdu. *"Sədrəddin, qardaşın haradadır?"* Aslan babanın şübhələri o an dağıldı. Çünki yuxusunda ona əmanət edilən uşağın adının Əhməd olduğunu xatırladı. Gənc yeniyetmə hörmətlə atasının sualına cavab verdi: *"Ata, Əhməd məscidin həyətində uşaqlarla oynayırdı"*.

Aslan baba bu cavabı eşitdikdə İbrahim xocaya *"biz oraya gedək, həm bir az ayaqlarım da açılar"* – dedi. Bu təklifdən sonra məscidə doğru yeriməyə başladılar. Ona yaxın uşaq məscidin həyətində sevinclə oynayırdı.

İbrahim xocanın yad bir ağsaqqalla özlərinə doğru gəldiyini görən uşaqlar dayandılar. Aslan baba bütün uşaqları bir-bir izləyərək əmanət sahibinin hansı uşaq olduğunu sezməyə çalışırdı. Uşaqlardan birisi dərhal qarşılarına keçdi. Hörmətlə atasının və ağsaqqalın əlini öpdükdən sonra o yaşdakı uşaqdan gözlənilməyən bir əda ilə sanki əmr edirmiş kimi ağsaqqalın gözlərinə baxaraq "Ağsaqqal, mənim əmanətimi verin!" – dedi.

Uşağın bu şəkildə əmin və açıq şəkildə danışması Aslan babanın qəlbini rahatlaşdırdı. Atası İbrahim xoca ilə qardaşı Sədrəddin isə təəccüb içində idilər. Əmanət nə idi? Kiçik Əhməd necə ola bilər ki, həmin qoca ilə belə tonda danışa bilirdi? Bunlar təəccüb ediləcək şeylər idi.

Bir müddət susduqdan sonra Aslan baba belinə bağladığı qurşağı yoxladı. Aylardır sahibinə çatdırmaq üçün saxladığı iri Mədinə xurmasını çıxarıb Əhmədə uzatdı. *"Buyur götür, gözəl oğlum..."* – dedi.

Bu əsnada ixtiyar qocanın şəfqətlə Əhmədin başını oxşaması İbrahim xocanın gözündən qaçmadı. *"Bu yad qoca ilə Əhməd arasında nələr baş verirdi? Bu əmanət nə idi? Kim idi bu nur üzü ilə insanın qəlbini rahatlaşdıran ixtiyar?"* Xoca "Bu qocaya soruşulacaq çox sual var" – deyə düşündü.

Aslan baba axtardığını tapdığı üçün çox sevincli və xoşbəxt idi.

O, İbrahim xocaya gördüyü yuxunu və ora gələnə qədər yaşadıqlarını izah etməli olduğunu düşündü. İbrahim xoca ağsaqqal qocadan aldığı xurmanı dərhal ağzına atıb yeyən Əhmədlə qardaşına uşaqların yanına qayıtmasını işarə etdi. Daha sonra Aslan baba ilə evə qayıtdılar. Məscidə gedərkən qonaq üçün yemək hazırlanmasını tapşırmışdı. Yemək də hazır idi.

***

Sözün tam bu yerində işıqlar yandı. Elektrik mənbəyinə taxılı olan telefon da elektrik yüklənməsinin yenidən başladığını bildirən səslə öz varlığını xatırlatdı. Hekayənin sehrinə qapılan uşaqlar işığın yanmasına heç də sevinmədilər. Çoban ata dedikləri atalarının danışdığı hekayənin yarımçıq qalacağını hiss etdilər. Onların adına yenə də Fatimə Dila sözə başladı:

"Çoban ata, xahiş edirəm, davam eylə…"

Uşaqlarının qəlbini qırmaq istəməyən Çoban ata uşaqlarının başını bir-bir oxşadı.

"Düz bir saat oldu. Mən də bir az yoruldum. Allahın başqa gecəsi yoxmu? Necə olsa, bizim məmləkətdə nə gecələr bitər, nə də işıq sönməsi. İşığın sönəcəyi ilk gecədə yenə davam edərik. Haydı, hərə öz işinə. Dərslərinizi hazırlamağa davam edin. Aslan babanın Əhməd ilə yaşadıqlarını da danışacağam. Söz verirəm. Bilirsiniz ki, sözüm sənəddir".

II
YƏSƏVİNİN GÖVHƏR BACISI

Aslan babanın Əhməd ilə görüşdüyünü öyrəndiklərinin üzərindən, demək olar ki, bir ay keçmişdi. Fatimə Dila hər gecə işıqlar kəsilsin deyə dua etsə də, nə hikmətdirsə, işıqlar heç kəsilmədi. İşıq kəsilsəydi, atamızı dinləyərdik deyə daşıdığı ümidlərin tükəndiyi bir cümə axşamı atasının yanına gəldi:

"Çoban ata! Bizə Aslan baba ilə Əhmədin hekayəsini danışacaqdın. Unutdunmu?"

Atası gülümsədi:

"Mənim sözüm sözdür. Lakin günah işıqlardadır..."

Fatimə Dila sanki bu sözləri gözləyirmiş kimi dərhal qaçıb işığı keçirdi. Bir anda salonu qaranlıq bürüdü. İçəriyə qonşu evlərin və yoldan keçən avtomobillərin işıqları süzülürdü.

Çoban ata bu gecə uşaqların əlindən qurtula bilməyəcəyini anladı:

"Haydı, get, digər uşaqları da çağır. Bir saat müddətində hekayəyə davam edək" – dedi. Fatimə Dila bacısı Uluş Nur ilə qardaşını çağırdı. Lazım olan əşyaları da salona gətirməyi unutmadı. Bir şam gətirərək yemək masasının arxasındakı aynanın önünə yerləşdirdi. Atası, hələ ki, anasının verdiyi qəhvəni udumlayırdı. Atası qəhvəsini içərkən onlar da atalarının qarşısında hilal şəklində oturdular. Təbii ki, bu fürsəti qaçırmaq istəməyən anaları da onlarla birgə oturdu.

***

Aslan baba axtardığı uşağı tapdıqdan sonra elm sahibi olan atası İbrahim Ata ilə məşvərət edərək kiçik Əhmədin mənəvi tərbiyəsini öz üzərinə götürdü. Əslində, Yəsi şəhərində yaşayan bir ailənin mənsubu olan İbrahim xoca da müəllim idi. Elm mərkəzi olaraq Türküstanda məşhurlaşan Sayram mədrəsəsindəki dostu Ağ xocanın dəvətini qəbul edərək on beş il əvvəl Sayram şəhərinə gəlmiş və buradakı məşhur mürşid olan Musa şeyxin qızı Qarasaç Ayşə ilə evlənmişdi. Sayram şəhərində ard-arda dünyaya gələn qızı və iki oğlu ilə xoşbəxt həyat sürürdülər. İki il əvvəl xanımı anidən dünyasını dəyişdi. İki il əvvəl vəziyyət belə alındığı üçün İbrahim xoca qızı Gövhər Şəhnaz, oğlu Sədrəddin və Əhmədin gələcəyini düşünərək Yəsi şəhərinə – qohumlarının yanına köçmək istədi. Lakin xanımının

atası olan Musa şeyxin ailəsi bunu qəbul etmədi. Bu səbəblə də Sayram şəhərində qalmalı oldular.

Bu şəkildə yetim qalan oğlu Əhmədin mədrəsədəki müvəffəqiyyətləri onun irəlidə İslama xidmət yolunda böyük bir nəsibi olacağı fikrini yaratmışdı. Bu səbəblə də Aslan babanın ortaya çıxaraq onun mənəvi təlimini öz üzərinə götürməsi onu heç təəccübləndirməmişdi.

Aslan baba dörd nəfərlik ailənin beşinci fərdi kimi Əhmədin mənəvi babası olaraq İbrahim xocanın evinə yerləşdi. Kiçik Əhməd günortaya qədər mədrəsədə dərs öyrənərdi. Daha sonra evə qayıdar, bacısının hazırladığı süfrədə öz atası və Aslan baba ilə günorta yeməyini yeyərdi. Bundan sonra Aslan babanın dərsləri başlayardı.

Aslan baba Əhmədin dərslərini açıq havada keçməyi üstün tutardı. Hava normaldırsa, bir boğçaya qoyduqları bir neçə dilim çörək, qatıq və meyvə ilə çölə gedərdilər. Orada zikr və təsbihatla bitən söhbət məclisi olardı.

İbrahim xoca uzaqlardan gələn bu sirli qocanın söylədiyi sözlərə bir neçə dəfə qulaq asmış, mədrəsələrdə öyrənilməsi mümkün olmayan kainat sirlərinə, mənəviyyatın necə bir şey olduğuna dair mövzulara toxunduğunun şahidi olmuşdu. Bundan sonra tamamilə güvəndiyi Aslan baba ilə ayrıca görüşərək ona minnətdarlığını bildirdi. Söhbət əs-

nasında bir gün əvvəl yuxusunda evlərindən çıxan tabutun ağ dəvəyə yüklənərək çıxarıldığını gördüyünü bildirdi:

"Aslan baba, bu yuxunun ya sənin, ya da mənim üçün xəbərçi olduğunu düşünürəm. Əgər mən səndən əvvəl vəfat etsəm, məni Sayram şəhərinin axırında Əhmədlə söhbət etdiyin söyüd ağacının alt tərəfində yol kənarına dəfn et. Söhbətlərinizə də yenə orada davam edin ki, hər gün oğlum məni ziyarət etsin və ruhum şad olsun. Yol kənarından keçənlər də ruhuma bir fatihə oxuyarlarsa, nə gözəl…" – demişdi.

Aslan baba bu sözləri eşitdikdə ona belə dedi: *"Əgər yaşımıza baxılarsa, bu fani dünyadan səndən əvvəl mən köçməliyəm. Lakin kimin nə zaman dünyadan köçəcəyi bəlli deyil. Rəbbim imanla köçməyi hər kəsə nəsib etsin*".

Artıq o söhbətin üstündən qırx gün keçmişdi ki, İbrahim xoca bir gecə təhəccüd namazında səcdə halında ikən dünyasını dəyişdi. Səcdədən qaldırıldıqda simasında olan təbəssüm hər kəsi təəccübləndirdi. Sanki cənnətdəki məqamını görərək ruhunu təslim etmişdi deyə buna yozdular gülümsəməsini…

İbrahim xoca vəsiyyət etdiyi yerə dəfn olundu. Aslan baba dərslərinə ona söz verdiyi yerdə davam

etdi. Aslan baba ilə Əhməd artıq müəllim-şagird olmaqdan əlavə can dostu olmuşdular.

Bundan sonra Yəsi şəhərindən İbrahim xocanın qardaşı Salman gəlib çıxdı. O, qardaşı uşaqlarının kimsəyə möhtac olmasını istəmədiyi üçün onları öz yanına aparmaq istəyirdi. Aslan baba qardaşı uşaqlarına sahib çıxmaq istəyən əminin haqlı olduğunu düşünürdü. Evin ən böyük övladı olan Gövhər Şahnaz artıq gəlin ola biləcək yaşa çatmışdı. Əgər o gəlin olarsa, iki qardaşı ilə yaşlı bir qocanın çətinlik çəkəcəyi aydın idi.

Qarasaç Ayşənin qohumları ancaq elmlə məşğul olduğu üçün çətinliklə keçinirdilər. Lakin İbrahim xocanın qardaşı ticarətlə məşğul olduğu üçün zəngin insan idi.

Salman əmi bütün bunlara görə Yəsi şəhərinə köçməyin daha doğru olduğunu bildirdi. Lakin yenə də son qərarı uşaqların öz öhdəsinə buraxdı.

Gövhər Şahnaz ilə Sədrəddin artıq ata kimi gördükləri Salman əmi ilə Yəsi şəhərinə getməyə çoxdan razı idilər. İki qardaşın bacısı olan Gövhər Şahnaz anası öldükdən sonra evin bütün məsuliyyətini öz üzərinə aldığı üçün yaşından daha böyük görünürdü. İbrahim xocanın iki qardaşını ona həvalə edib bir də boğçanı əmanət etməsi ata ilə qızı arasındakı bir sirr idi.

Əhməd Salman əmisinə Aslan babanın da onlarla gəlməsi şərti ilə bu köçü qəbul etdiyini bildirdi.

Beləliklə, bütün yüklərini iki dəvəyə yükləyərək Salman əmi və Aslan baba ilə birgə səhərin ilk işıqlarında yola rəvan oldular. Gedəcəkləri yer Yəsi şəhəri idi. Təbii ki, gedərkən ata və analarının qəbrini də ziyarət etməyi unutmadılar.

***

Salman əmi uşaqların özlərini narahat hiss etməməsi üçün həyətin bir başında kərpicdən ikiotaqlı bir ev tikdirmişdi. Bacı bir otağa, qardaşlar da digər otağa yerləşdilər. Aslan babanın qismətinə isə həyətdə olan ikimərtəbəli evin qonaq otağı düşdü. Salman əmi Aslan babaya uşaqların otaqlarına bitişik bir otaq tikdirməyi təklif etsə də, Aslan baba bu təklifi qəbul etmədi: *"Mən bu dünyada onsuz da bir qonağam. Bu qonaq otağı gələn qonaq olmadığı müddətcə mənə bəs edər. Əgər qonaq gələrsə, mən bağçadakı evin bir küncündə özümə yer taparam"*.

O ilin aprel ayında Yəsi şəhərinə gəldikləri zaman Aslan baba ilə tanışlıqlarının üzərindən yeddi ay keçirdi. Əhməd Sayram mədrəsəsindəki müvəffəqiyyətləri ilə seçilirdi. O, təfsir və hədis sahəsində özündən beş-altı yaş böyükləri belə keçmişdi. Fiqh sahəsində isə daha müvəffəq idi. Ondan bu sahədə fitvaları belə soruşulurdu.

Qazandığı bu qədər elm üzərinə Aslan babadan aldığı mənəvi tərbiyə, zikr və təhəccüdə davam etməsi onun qəlb dünyasını zənginləşdirmişdi. Qəlbinin gözəlliyi simasında əks olunurdu. Əhməddəki bu nuranilik ilk görüşlərindəcə Yəsi mədrəsəsinin baş müəllimi Loğman xocanın diqqətini çəkmişdi. Loğman xoca onunla ilk görüşündə ona bir neçə çətin fiqhi sual vermişdi. Aldığı cavablardan onun zəka və anlayışına heyran qalmışdı.

Əhməddəki bu fərasət qısa müddətdə mədrəsə müəllimləri tərəfindən də bilindi. Müəllimlərin hamısı bu uşağa bundan artıq verə biləcəkləri elmlərinin olmadığını bilirdilər. Hələ yeddi yaşını bitirmiş bu uşağın mümkün olsa, mədrəsə təhsilinə yeni başlayan uşaqlara dərs keçməsinin daha doğru olacağını söylədilər. Bundan sonra müəllim kimi işləyə biləcəyi yaşa qədər mədrəsədə qalan tələbələrə tərbiyəçi təyin olundu. Bu müddətdə də bəzi klassik əsərləri oxuması ona tövsiyə edildi. Bu qərar Salman əmi ilə Aslan babaya çatdırıldıqda onlar da çox sevinəcəkdilər.

Aslan baba Əhmədin mənəvi cəhətdən necə yetişdiyini görürdü. Əhməd az yemək, az yatmaq və az danışmaq kimi mənəvi imtahanlardan üzüağ keçməsi ilə hər şey sübut edirdi. İndi isə bu fərasətli uşağa bəzi zikr qaydalarını öyrətməyin vaxtı çatmışdı. Buna görə də yuxusunda gördüyü kimi,

Peyğəmbərimizin tərif etdiyi şəkildə nəfəsin normal axışı içində təkrar edərək min bir "Allah" zikrinin təliminə başladı. Bu çətin dərs bitdikdən sonra insanın hər nəfəsi Allahın zikri halına gəlirdi.

"Allah" zikrinin bu şəkildə tamamlanmasından sonra mişar zikri olaraq məşhurlaşacaq və Yəsəvi dərvişlərinə xas olan "Hayy" və "Hu" zikrlərini öyrətdi. Bu zikr də nəfəsin idarəsiylə edilirdi. Aslan baba bu zikri öyrətdikdən sonra Əhmədə: *"Ey oğlum! Hayy deyib nəfəs almaqla həyatın mənbəyi olan Rəbbimizin izni ilə bədənindəki bütün hüceyrələr dirilər, ardından da Hu deyə nəfəsini buraxarkən bütün dünyəvi dərdlərini* də nəfəsinlə birgə çölə atarsan" – demişdi.

Daha sonra bu zikri əyani olaraq göstərməyə başlayan Aslan baba zikri bir neçə dəfə təkrar etdikdən sonra sanki dünyadan qopur, başqa aləmləri seyr edirdi. Əhməd isə hər nə qədər onun kimi olmaq istəsə də, bu zikr əsnasında ağlından keçən düşüncələrdən qurtula və istədiyi məqamı əldə edə bilmirdi. Bir gün bunu utana-utana olsa da, Aslan babaya söylədi: *"Aslan baba! Mən dilimlə zikr edərkən ağlımdan keçən əlaqəsiz düşüncələrə mane ola bilmirəm. Nə qədər çalışsam da,* mümkün olmur. Bəzən buna görə *zikri buraxıb* hönkür-hönkür ağlamağım gəlir".

Səkkiz yaşında olan Əhmədi dinləyərkən Aslan baba sanki bir uşağı deyil, hökmdarı dinləyirmiş kimi ciddi idi. Onun dediklərini dinlədikdən sonra Aslan baba gülümsədi. "Ah mənim gözəl oğlum. Hamısı sırası ilə olacaq… Sən sadəcə dilinlə olsa da, zikrə davam eylə. Allahı zikr edən o dilin hörmətinə bütün bədənin Allahın rəhmətinə nail olar. Sən özünü məcbur etmədən bu zikrə davam et. Baxaq görək, nələr olacaq? Görəcəksən…"

Bu minval ilə günlər, aylar keçdi. O il sanki Aslan baba və İbrahim xocanın yetimlərinin hörmətinə hər kəs əvvəlki ilin iki misli qədər məhsul götürdü. Ağaclar bol meyvə vermişdi. Salman əminin ticarəti də bu bərəkətdən öz nəsibini alaraq artmışdı. Artıq, Sədrəddini də göndərdiyi Çin karvanındakı dəvə sayı qırxa çatmışdı.

Sədrəddin ticarətdə məharətli idi. Əhməd elmdə nə qədər bacarıqlı idisə, Sədrəddin də ticarətdə onun kimi bacarıqlı idi. Ticarətinin Aslan baba hörmətinə bərəkətləndiyini düşünən Salman əmi hər səfərindən qayıtdıqda onun üçün xüsusi hədiyyə gətirməyi adət halına gətirmişdi. Lakin haradan bilə bilərdi ki, onun gətirdiyi qiymətli hədiyyələri Aslan baba üzərindən bir cümə keçməmiş ehtiyac sahiblərinə paylayır…

***

Mövsüm sərinləməyə başladıqda Əhmədin səkkiz yaşı bitmişdi. Əhməd Aslan baba ilə bir il əvvəl, bu vaxtlarda qarşılaşdığını xatırladı. Bunu qeyd etmək üçün bacısına xahiş etdi: *"Bacı! Bizə mənəvi ata olan Aslan babamız üçün çox sevdiyi halvadan bişirərsənmi? Mən də əmim yoldaşına xahiş edib nar suyu hazırladacağam. Bu axşam Aslan babanı sevindirək…"*

O axşam Əhməd məsciddəki namazdan sonra öz yerinə yönələn Aslan babanı bacısının otağına dəvət etdi. Bacı-qardaş otağın girişində Aslan babanı gözləyirdi. O gecə çox gözəl mənəvi söhbət oldu… Aslan baba o gecə anidən Gövhər Şahnaza heç gözləmədiyi bir sual verdi*: "Gözəl qızım, atanın sənə əmanət etdiyi boğçanın açılma vaxtının çox yaxınlaşdığını bilirsənmi?"*

Əhməd bu sualdan heç nə başa düşmədi, lakin bacısının həyəcanlanaraq üzünün qızardığını gördü.

Aslan babanın verdiyi sual cavabsız qaldı. Söhbət Qarasaç Ayşə ilə İbrahim xocanın anılması və ruhlarına dua oxunması ilə başa çatdı. Əhməd Aslan babaya ata və anasının qəbirləri üzərində türbə tikdirmək istədiyini və bu barədə özünə söz verdiyini bildirdi. Aslan baba: *"Allah hər kəsə belə vəfalı övlad nəsib etsin. İnşallah, bir gün o da olar"* – dedi.

Halvanın dadı ogünkü söhbətin ləzzəti yanında bir heçdi. Gövhər Şahnaz ilə Əhməd haradan bilə bilərdilər ki, bu sevinc məclisi onunla vida yeməyi olacaq…

***

O halva gecəsindən iki gün sonra sübh namazı üçün dəstəmazını təzələməsindən ötrü Aslan babanın otağına su aparan Əhməd Aslan babanı qibləyə yönəlmiş halda gördü. Sanki bu dünyadan qopmuşdu. Onun bu halına mane olmaq istəmədiyi üçün su qabını yerə qoyaraq getmək istəyirdi ki, Aslan babanın səsi eşidildi:

"Ey oğul! Mənim sənə verəcəklərim tamam oldu. Artıq mənim bu dünyadan köçmə vaxtımdır. Cümə səhəri, namaza gəlməsəm, məni yoxla… Əgər ölmüşəmsə, namazımı Xəlvət məscidində cümə namazından sonra Əbdülqadir xoca qıldırsın. Sonra nəşimi bir ağ dəvəyə yükləyərək onu sərbəst buraxın, dəvə hara gedərsə, təqib edin. Çökdüyü yerdə də mənim məzarımı qazın".

Əhməd Aslan babanın əbəs danışmayacağını bilirdi. Bu səbəblə də qəlbini hüzn bürüdü. Ana və atasından sonra Aslan babanı da itirəcəkdi? Gözlərinə dolan yaşların yanağından aşağı süzülməsinə mane ola bilmədi. Aslan baba şəfqətlə bu yaşları sildi:

"Ey oğul! Bilirsən ki, biz Allaha aidik və ona dönəcəyik. Lakin sən əsla Gövhər Şahnaz qızımı incitmə. Atanın nəsli o qızımla davam edəcəkdir. Yəsi sultanı oğlu üçün Gövhər Şahnaza talib çıxdıqda əmin qarşı çıxsa da, *bu evlilik üçün mənim razı olduğumu əminə bildir. Mənim vəfatımdan sonra bacın Gövhər Şahnaz atanın ona əmanət etdiyi boğçanı sənə verəcəkdir. Boğçadan çıxan xirqəni hər cümə* günü cümə namazına gedərkən geyin, səfərə çıxacağın zaman istifadə edəcə*yin əsa ilə çanağı da əsla itirmə. Əmanətlər arasındakı üzük atanın böyük babası Hz. Əlidən sənə qalan mirasdır. Atandan sənə əmanət olan min bir dənəli təsbeh isə hər səhər vaxtında oxuyacağın min bir Allah zikri üçündür. Cənd şəhərində yaşayan oğlum Mənsura ölüm xəbərimi yolla… Əgər sizinlə birlikdə qalmaq istəyərsə, ona sahib çıxın. Mənim sənə öyrətdiklərimi sən də oğluma öyrət. Mən sənə bütün haqqımı halal edirəm, sən də halal et…"*

Əhməd Aslan babanın dediklərindən sonra nə deyəcəyini bilmədi. Yaddaşında sadəcə uzanıb Aslan babanın əllərindən öpdüyü qalacaqdı…

O gün cümə namazı üçün Xəlvət məscidində heç görülməmiş sayda camaat vardı. Aslan babanın cənazə namazı müxtəlif diyarlardan gələn və kimsənin tanımadığı, lakin mübarək insanlar ol-

duqları üzlərindən bilinən bir çox insan tərəfindən qılındı.

Aslan babanın vəsiyyətinə uyğun olaraq nəşi bir ağ dəvənin üzərinə yüklənərək səhrada sərbəst buraxıldı. Türküstanda, demək olar ki, rastlamaq mümkün olmayan ağ dəvə Xorasandan gələn bir yolçunun miniyi idi. Sahibi bu vəsiyyəti eşitdikdə heç kimin anlaya bilmədiyi bir səbəblə birdən-birə hıçqıraraq ağlamağa başlamış və ağ dəvəsini işləri bitdikdən sonra qurban kəsmək arzusuyla onlara hədiyyə etmişdi.

Dəvə uzun müddət gəzdikdən sonra axşama doğru Otrar obasında çökdü. Onun çökdüyü yerdə Aslan baba üçün məzar qazıldı. Həmin o yerdə Aslan baba təkbaşına torpağa tapşırıldı. Bu tək qəbrin ətrafında illər içərisində böyük qəbiristanlığın olacağını, hətta vəfatından üç yüz il sonra qəbri üzərində Əmir Teymur tərəfindən bir türbə və məscid inşa ediləcəyini kim bilə bilərdi ki?!

***

O axşam yatsı namazından sonra qardaşı Əhmədi otağına çağıran Gövhər Şahnaz kiçik bir boğçanı ortaya qoydu: *"Bu boğçanın açılma vaxtının çatdığını Aslan baba bildirmişdi. Gecikməyimiz, həm atamız İbrahimi, həm də Aslan babanı incidər. Buyur, əmanətini götür, qardaşım…"* – deyib boğçanı üç dəfə öpüb başına qoyaraq Əhmədə uzatdı.

Əhməd "bəsmələ" ilə boğçanın möhkəmcə bağlanmış düyününü açdı. İçərisindən çıxan əmanətləri yerə açdığı yaylığın üzərinə sərdi. Xurma çəyirdəyindən düzəldilmiş min bir dənəli təsbeh, o bölgədə heç rast gəlinməyən on iki dilimli bir keçə başlıq, dəvə tükündən kobud şəkildə toxunmuş qolları kəsik bir xirqə, qaşı üzərində Əli ibn Əbu Talib adı həkk edilmiş bir üzük…

Boğçadan bir məktub da çıxdı. Bu məktubu açaraq oxumağa çalışan Əhməd *"İmam Muhammədul-Hənəfi ibn Əliyyul-Murtəza"* – adı ilə başlayan bu yazının nəsil şəcərəsi olduğunu anladı. Sürətlə oxuyub son sətirə çatdıqda ürəyi sanki yerindən çıxacaq kimi idi. Son ad atasına aiddi. *"İbrahim ibn İlyas…"*

Şəcərəni öpüb başına qoydu… Bacısı Gövhər Şahnaza sarıldı və bir müddət qardaş-bacı belə qaldılar…

Gövhər Şahnaz anidən nəyisə xatırlamış kimi qapının arxasındakı rəfi yoxladı. *"Bir də əsa var, qardaşım. Səfərə çıxdıqda işinə çox yarayacaq…"* – deyərək rəfdəki kitabların arxasında gizlətdiyi incə uzun əsanı qardaşına verdi.

Gövhər Şahnaz o gecədən sonra kiçik qardaşı Əhmədə artıq başqa bir nəzərlə baxırdı. O günə qədər hər qərarına müdaxilə etdiyi qardaşı sanki bir anda böyümüş və hələ səkkiz yaşında olmasına

baxmayaraq, ağsaqqal kimi müdrikləşmişdi. Əhməd mədrəsədə dərs keçdiyi uşaq və gənclərdən fərasətli olanlarını seçərək onlara Aslan babanın söhbətlərini etməyə başlamışdı.

İllər keçmiş, qardaşı Sədrəddin artıq on səkkiz yaşında hörmətli tacir idi. Əmisinin yoldaşı Sədrəddini öz qohumu ilə evləndirdi. Toy günü Yəsi əmirinin yaraşıqlı oğlunun Gövhər Şahnazı süzdüyünü görən əmisi yoldaşı buna gülümsəmiş və *"xeyirli olsun"* – demişdi. Sultanın oğlunun Gövhər Şahnaza meyli olduğunu özünə bildirmişdilər. Növbəti ilin yaz fəslində Gövhər Şahnazın da nikahı baş tutmuşdu. İbrahim xocanın geridə qalan yetimlərindən artıq ikisi öz yuvasını qurmuşdu.

O il Sədrəddinin ailəsində bir sevinc yaşandı. Övladları dünyaya gəlmişdi. Adını Muhammməd Danışmənd qoydular.

***

Saatına baxan Çoban ata, masanın üzərindəki suyu əlinə aldı. Bir udum su alıb qızı Fatimə Dilaya baxdı: "Qızım, sən olsaydın Gövhər Şahnazın yerində?" Bu sual ilə axşamkı söhbətin başa çatdığını anlayan Fatimə Dila, işığı yandırmaq üçün qapıya doğru yönəldi: "Çoban ata, uff, o zamanlar başqa idi, indi isə bambaşqadır…"

III
SULTAN SƏNCƏRƏ DUA

Ertəsi həftə cümə axşamı olmasını səbirsizliklə gözləyən Fatimə Dilanın ağlı həftə boyu yaxınlarını bir-bir itirən Əhməddə qalmışdı. Digər yandan da Gövhər Şahnazın qardaşları ilə olan əlaqəsini düşünmüş, atasının bu sualına "uff" deyə cavab versə də, "Eyni vəziyyətlə özüm qarşılaşsaydım, nə edərdim?" – deyə düşünmüşdü. Cümə axşamı qonaq otağı Çoban atanın söhbət məclisinə uyğun hala gətirilmişdi. Artıq mətbəxdəki yemək süfrəsindən sonra dərhal salona keçə bilərdilər.

Fatimə Dila salona son dəfə nəzər yetirdikdən sonra mətbəxə keçərək:

"Buyurun, Çoban ata. Ev əhli əmrinizdədir. Söhbət əsnasında içmək üçün qəhvəniz də hazırdır" – dedi.

Atası qəlbindən, "Bu qızın aktrisa olmasını istəmərəm, lakin hər halda çox yaxşı aktrisa olardı" – deyə keçirdi.

Hər kəs yerinə oturduqdan sonra şamı yandırıb masanın üzərinə yerləşdirən Fatimə Dila işıqları keçirib dərhal atasının qarşısındakı yerinə keçdi.

Sanki bir aparıcı kimi sözə başladı:

"Buyurun, Çoban ata. Quzularınız mənəvi qidalarını almaq üçün sizi gözləyir".

***

Yəsi şəhərindəki İbrahim Atanın oğlu Əhməd adlı gənc müəllimin şöhrəti bütün Mavərənnəhr şəhərinə yayılmışdı. Buxaradan gələn bir yad dərviş Yəsidəki Xəlvət məscidinin imamı olan Əbdülqadir əfəndidən Əhmədi soruşdu. Əbdülqadir əfəndinin Allah dostu olduğuna hər kəs şahidlik edərdi. O, ehtiyatı əldən verməyərək dərvişdən *"Əhmədlə nə edəcəksən?"* – deyə soruşdu.

Abdullah adlı dərviş bu dəfə sərt bir ifadə ilə sözə başladı: *"Əfəndi, bu bir dəvətdir. Dəvət sahibi Xorasanın mürşidi olaraq bilinən Yusuf Həmədanidir. Mən sadəcə vasitəçiyəm. Ona Səmərqənddəki mədrəsədə vəzifə vermək istəyir. Əslində müəllim çoxdur. Mürşidin niyyəti Əhmədi Buxara dərgahına varis etməkdir"* – dedi.

O əsrlərdə Buxara mədrəsələri İslam dövlətlərinin hər tərəfindən gələn tələbələrlə dolu idi. Bu tələbələr Buxara mədrəsələrində təfsir, hədis və fiqh başda olmaqla, bütün İslami elmləri ən gözəl

şəkildə öyrənirdilər. Bir rəvayətdə Buxara mədrəsələrindən fiqh sahəsində məzun olan tələbələrin sayının altı yüz min nəfərə yaxın olduğu bildirilir.

Əhməd Yəsəvi belə bir dövrdə dərviş Abdullah tərəfindən çatdırılan dəvətlə Səmərqəndə gələrək mənəvi olaraq kamala çatacağı Yusuf Həmədaninin mənəvi yoluna qoşulmuşdur.

Əhməd Yəsəvi Yusuf Həmədaninin mənəvi dərslərinə başladıqda iyirmi yeddi yaşında idi. Əhməd Yəsəvi "Divani-Hikmət" əsərində o yaşa qədər yaşadığı mənəvi təcəllilərdən bəhs etmişdir. O yaşına qədər bir pirlə qarşılaşmadığı üçün dərdə düçar olduğunu söyləmişdir. İyirmi yeddi yaşında bir pirlə qarşılaşdığı üçün dərdlərindən qurtulduğunu və dərgaha layiq ola bildiyini bildirmişdir.

***

Yusuf Həmədani gənc yaşlarında Bağdada gələrək mədrəsə tələbəsi olan və qısa müddətdə müəllimlərin təqdirini qazanan bir alim idi. İslamın zahiri elmlərində müvəffəqiyyət qazandıqdan sonra dərvişlik yoluna girərək dövrünün ən mühüm mürşidlərindən biri olan Əbu Ali Farmədiyə bağlanaraq təsəvvüf yoluna qədəm qoymuşdur. Təsəvvüf yolunda yüksəldikdən sonra İraq, Xorasan, Türküstan diyarlarında xalqın mənəvi tərbiyəsi ilə məşğul olmuşdur. Allah yolundakı xidmətləri ilə şöhrət qazandıqdan sonra, ümumiyyətlə, şəhər valilərinin

dəvəti ilə Bağdad, Nişapur, Mərv, Buxara, Herat, Səmərqənd kimi böyük şəhərlərdə gəzərək insanları dini məsuliyyətlərini yerinə yetirməyə çağırmış və mənəvi cəhətdən yüksəltmək üçün çalışmışdır.

Bu səbəblə də, Əhməd Yəsəvi və digər seçilən tələbələrin də Yusuf Həmədani ilə birlikdə Türküstanın müxtəlif yerlərini gəzdikləri təxmin edilir. Həyatı haqqındakı məlumatlar tələbələri tərəfindən qələmə alındığı üçün günümüzə qədər gəlib çatmışdır.

Yusuf Həmədani uzun boylu, saqqalı sıx, zəif bir şəxs idi. Həmişə yundan və yamaqlı paltar geyinərdi. Peyğəmbərimizin məşhur səhabələrindən Salmani Farisinin əsası ilə sarığının özündə olduğunu bildirmişdir. Evində üzərində oturduğu bir həsir, keçədən bir səccadə, iki yastıq, bir su qabı və bir yemək qabı vardı. Bu qədər kasıbyana yaşayardı. Çünki mala və mülkə əhəmiyyət verməz, əlinə keçənləri ehtiyac sahiblərinə paylayar, kimsənin də sədəqəsini qəbul etməzdi.

Özü ilə həmsöhbət olan hər kəsə iltifat edər, nəzakət və mərhəmətlə davranar, qonaqlarına bölgələrdəki digər dərvişlərin hal və əhvalını soruşardı. Qəlbi bütün yaradılan varlıqlar üçün saf məhəbbətlə dolu idi. Hər kəsə qarşı hörmət və sevgi göstərər, bütün qonşularını ziyarət edərək

onlara İslamın ucalığından bəhs edər, insanları haqqa dəvət edərdi.

Mənbələrdə Həmədaninin əxlaqı haqqında bunlar yazılmışdır: "Halal loğmaya çox diqqət yetirərdi. Comərdlik, xeyirxahlıq, təvazökarlıq kimi xüsusiyyətlərə malik idi. Harama yaxınlaşmaq bir yana, halalın bir çoxunu tərk edəcək şəkildə həssas yaşayardı. Peyğəmbərimizin sünnələrinə çox bağlı idi. Allah eşqi ilə dolu olan bu insan hər bir təbəqənin insanına və yaradılan bütün varlıqlara qarşı şəfqətli davranardı. Hər anını yeni insanlara İslamı çatdırmaq üçün istifadə edən bir mürşid idi.

Yusuf Həmədani hər ay Səmərqənd alimlərini dərgahına dəvət edərək onlarla söhbət edərmiş. Fürsət tapdıqca ziyarət etdiyi, Səmərqənddə Şahı Zində qəbiristanlığında dəfn edilmiş, Peyğəmbərimizin əmisinin oğlu Qusəm ibn Abbasın qəbrinin yanında uzun müddət qalar, çoxlu dua edərdi.

Tələbələrinə namaz, oruc, zikr mövzusunda diqqətli olmalarını tövsiyə edərdi. Hər gün Qurani-Kərim oxumağa əhəmiyyət verərdi. Ağzından pis söz çıxdığını eşidən olmamışdı.

Yusuf Həmədani ömrünün son illərində Mərv şəhərinə və oradan da indiki Əfqanıstanda olan Herat şəhərinə getmişdir. Bir neçə dəfə Herat və Mərv şəhərləri arasında səfər edərək ətrafında formalaşan elm halqası ilə sanki "səyyar bir universitet" yarat-

mışdı. Beləliklə də, ətrafına bir çox insan yığılmışdır. Bu irşad fəaliyyətləri sayəsində doqquz min nəfərin İslamla şərəflənməsinə vəsilə olmuşdur.

Həyatının son ilinin payızında yenə Herat-Mərv səfərlərinin birində Bamyan qəsəbəsində son nəfəsini vermiş, oradan da Mərv şəhərinə gətirilərək dəfn edilmişdir. Yusuf Həmədaninin vəfatı əsnasında baş verənlər yaxın tələbələri tərəfindən qeyd edildiyi üçün günümüzə qədər gəlib çatmışdır:

"Yusuf Həmədani vəfat edəcəyi gün günorta namazını qıldı. Kürəyini məscidin mehrabına söykədi və tələbələrinə öz cənazəsi üçün su isitmələrini əmr etdi. Tələbələri ağladılar. Həmədaninin xanımı da qırx gün əvvəl vəfat etmişdi. Üzünü özündən sonra yerinə keçəcəklərini bildirdiyi dörd tələbəsinə və orada olan digər dostlarına tərəf çevirərək özündən sonrakı xəlifələri belə təyin etdi: "Dərgahımıza ilk vəkil olaraq Abdullah Bərakini seçdim. Ona tabe olun. Ona qarşı gəlməyin. Müxalifət etməyin. İrşad yolunda növbə sizə çatana qədər xoş keçinin və xoşbəxt yaşayın. Onun yerinə Həsən Əndaki keçəcək Xilafət növbəsi Əhməd Yəsəviyə çatdıqdan bir müddət sonra o, Türküstan diyarına səfər edəcək. *O, Türküstan diyarına səfər etdikdən sonra xəlifə Əbdülxaliq olacaqdır. Həqiqətən də,* vəfatından *sonra sırayla bu seçilmiş* tələbələri mürşidlik məqamına keçdilər".

Həmədani həzrətləri sözlərinə davam edərək: "Allah-Təalanın elə qulları vardır ki, onların can verməsini Allahdan başqa kimsə bilməz" – buyurdu və yenə də sözünə *davam etdi: "Məni Abdullah Bəraki yusun, qəbrə də Həsən Əndaki endirsin". Sonra üzünü Əhməd Yəsəviyə çevirib: "İndi Fatir, Yasin və Naziət surələrini oxu..." – deyə əmr etdi.*

Vəsiyyəti bitdikdən sonra ruhunu Allaha təslim etdi. Əhməd Yəsəvinin oxuduğu surələr oxunub bitən kimi ruhunu təslim etdiyini gördülər".

***

"Sizə bu axşam əsl danışmaq istədiyim Anadolunun fatehi Alp Aslanın nəvəsi olan Sultan Səncər ilə Yusuf Həmədani arasındakı əlaqədir.

Bu əlaqəni anlaya bilsəniz, tarix boyu Türk hökmdarları ilə könül sultanları arasındakı əlaqənin təməlini anlamış olacaqsınız".

Sözün bu yerində atasını uzaqdan səssizcə dinləyən Alp-Erkin:

"Fateh Sultan Mehmet ilə Ağ Şəmsəddin arasındakı əlaqə kimi deyilmi, Çoban ata?" – dedi.

Atası gülümsədi:

"Doğru söylədin, afərin sənə!..."

***

Sultan Səncər Səlcuq dövlətinin sonuncu böyük hökmdarıdır. Malazgird zəfərindən on beş il sonra Səlcuq Sultanı Məlikşahın oğlu olaraq dünyaya gəlmişdir. Kiçik yaşlarından etibarən müəyyən vəzifələrdə çalışaraq dövlət təcrübəsi qazanmış, qardaşları Bərkyaruq və Muhammməd Taparın dövründə bəzi üsyanları yatırmışdır. Qardaşı Muhammməd Taparın ölümündən sonra Sultan Səncər Xorasanda hökmdarlığını elan etmiş və bir il sonra 1119-cu ildə böyük Səlcuq dövlətinin sultanı olmuşdur. Qaraxanilərin, Qəznəvilərin və bir çox dövlətlərin hücumlarının qarşısını alan Səncər 1153-cü ildə Bəlx şəhərində qarşılaşdığı Oğuz Yabqu ilə savaşda əsir düşmüşdür. Səncər əsarət altında yaşayan bir sultan olmaq istəmədiyi üçün sultanlığı tərk edərək Yusuf Həmədaninin Mərv dərgahına qoşulmuşdur. Buradakı üç illik inziva həyatından sonra təkrar taxta keçsə də, taxtda çox qala bilməmiş, yetmiş bir yaşında ikən vəfat etmişdir. Mərv şəhərində əvvəlcədən tikdirdiyi türbəsində dəfn edilmişdir.

Sözünün bu yerində Çoban ata oğluna doğru döndü: "Bu türbə son zamanlarda Türkiyə tərəfindən təmir edilmişdir. Yaxın zamanlarda televiziyada bu barədə xəbər vermişdilər. Yəqin ki, sən xatırlayırsan, Alp-Erkin?!"

Lakin oğlundan bu barədə səs çıxmadı. Bəlli idi ki, oğlu bunu xatırlaya bilməmişdi.

Sultan Səncərin həyat hekayəsi tarixi yöndən bu qədər qısadır. Onu əsas ölümsüz edən şey təsəvvüf əhlinə sahib çıxması və elmə təşviq etmiş olmasıdır. Sultan Səncərin dövründə Xorasan bütün İslam dünyasında və Anadoluda əsas elm mərkəzi sayılırdı. Bizim ölkəmizin mənəviyyatında böyük yeri olan Hacı Bektaş Vəlinin ailəsinin də Xorasandakı Nişapur şəhərindən Anadoluya gəlmiş olması bunu açıq-aşkar göstərir.

Tarixi mənbələrdə qeyd olunduğuna görə, dövrün Səlcuq hökmdarı Sultan Səncər Yusuf Həmədaniyə olan bağlılığını hər zaman göstərmiş və Sultan Səncərin bu Allah dostuna bağlılığı ölümlə belə sona çatmamışdır. Həmədaninin qəbri üzərində türbə tikilməsi əmrini Sultan Səncər vermişdir. Bu gün həm Sultan Səncərin, həm də Yusuf Həmədaninin türbəsi Türkmənistan sərhədləri içərisində olan Mərv şəhərindədir. Hər ikisinin türbəsi də əsrlərdir ki, övliya məqamı olaraq ziyarət edilir.

Onun Allahın sevimli bəndələrinə göstərdiyi gözəl münasibət əsrlərdir ki, unudulmur.

İndi sizə əhəmiyyətli tarixi məlumat verəcəyəm.

Malazgird zəfərindən tam yüz qırx il sonra Səlcuq sultanı Səncər Səmərqənd əmirinə bir məktub göndərərək Həmədani haqqında məlumat istəmişdir. Məktubunda bunları da qeyd etdirmişdir: "Səmərqənd böyüklərinin bildirdiyinə görə Yusuf

Həmədaninin yaşı irəliləmişdir. Bizim Səmərqənd tərəfə getmək imkanımız yoxdur. Həzrətin təkkə məsrəfləri üçün halal yoldan qazanılmış əlli min qızıl göndərildi. Bütün arzu və istəyimiz onun əxlaq və halının bizə yazılıb göndərilməsi və işlərimizin asanlaşması üçün bir fatihə oxunmasıdır. Dua edərək bizi şərəfləndirsinlər".

Bu tələb Yusuf Həmədaniyə çatdırıldıqda o, müridləri ilə görüşmək üçün Yəsi şəhərinə gəlmişdi. Burada Həmədani Əhmədi Səmərqəndə dəvət edən Abdullah Bərakinin evində idi. Əhməd Yəsəvi və başqa tələbələri də oradaydı. Şeyxləri olan Yusuf Həmədaniyə Sultan Səncərin arzu və istəklərini bildirdilər.

Bunu eşidən Yusuf Həmədani onun üçün dua etmiş və istədiyi fatihə surəsini oxumuşdur. Ardından da təvazökarlıqla belə buyurmuşdur:

"Ey oğullarım! Məndə xətadan başqa nə var ki, onu yazıb sultana göndərə bilək?"

Bunu eşidən tələbələrindən biri:

"Əfəndim! Dərvişlərin sizdən istədiyi onlara izin verməyinizdir" – dedikdə, "Məndə Allah rəsulunun halına uyğun nə görmüşsünüzsə, onları Sultan Səncərə yazın. İslamı yaşamaq zahirdən baxıldıqda hər zaman ilahi əmr və qadağalara uyğun yaşamaq, gücü nisbətində dini əsasları qorumaq, nəfsin arzu

və *istəklərindən uzaq durmaqdır. İşin əsli isə qəlbi təmizləməyə və nəfsin pis sifətlərini yox etməyə çalışmaqdır. Qəlb zikrində əzmli olmaq lazımdır ki, qəlb hər zaman Allahı zikr edəcək hala gəlsin...”*

İcazə verildikdən sonra dərvişlər Yusuf Həmədani haqqında məktub yazaraq Səncərə göndərdilər.

Alp-Erkin yenə də dayana bilmədi:

“Bir fatihəyə əlli min qızıl... Mən olsaydım, mən də oxuyardım...”

Atası bir az əsəbləşdiyini göstərən ifadə ilə oğluna baxdı:

“Fatihə eyni fatihədir, lakin oxuyan ağız fərqlidir, ey oğul... Türk tarixinin hansı dövrünə baxsanız, Allah dostlarına hörmət göstərən bir sultanla qarşılaşa bilərsiniz. Osmanlının altı əsr ayaqda qalmasının sirri, bəlkə də, Osman Qazinin qayınatası Şeyx Ədəbalinin Osmanlı hələ kiçik bir bəylik ikən bu dövlət üçün etdiyi duadır”.

IV
YƏSƏVİNİN SARI ÖKÜZÜ

Çoban ata artıq üç dəfə Əhməd Yəsəvi haqqında evdəkilərə söhbət etmişdi. Uşaqların təlim-tərbiyəsi üçün belə mövzuların faydalı olduğuna inanırdı. Lakin uşaqlarını bezdirməmək, tarixi məlumatlarla onları yormamaq lazım gəldiyini də bilirdi.

Bu düşüncə ilə dördüncü həftə uşaqlara fərqli bir şey danışmağı planlamışdı. Bu həftə nədən bəhs edəcəyini artıq dəqiq bilirdi. Bu həftə Əhməd Yəsəvinin əl əməyi ilə yaşamağa verdiyi əhəmiyyətdən danışacaqdı. Bu qissədə Əhməd Yəsəvi həzrətlərinin öküzü də yer alır.

Hər həftəki kimi işıqlar söndürülüb hər kəs öz yerinə keçdikdən sonra Çoban ata:

"Deyin görüm, bu həftə sizə nədən bəhs edəcəyəm?" – deyə soruşdu.

Söhbətlərdən ən çox zövq alan və söhbətlərə həvəsli olan Fatimə Dila dərhal sözə başladı:

"Belə bir sual verdiyinə görə, yəqin ki, maraqlı bir hekayə danışacaqsan, Çoban ata..."

***

Bu axşam sizə Əhməd Yəsəvinin ağıllı öküzünün hekayəsindən bəhs edəcəyəm.

Lakin daha əvvəl Əhməd Yəsəvinin Buxaradan Yəsi şəhərinə qayıtmasına və qayıtdıqdan sonra bölgədəki türklərə İslamın incəliklərini izah etməyə çalışmasına toxunaq.

Dostu Əbdülxaliqin öz əsərində yazıb bildirdiyinə görə, Əhməd Yəsəvi Yusuf Həmədani ilə elm almaq üçün gəldiyi Buxarada tanış olmuş, lakin təsəvvüf yoluna qədəm qoyması Səmərqənddə baş vermişdir. Əhməd Yəsəvi həzrətləri mürşidi və müəllimi olan Yusuf Həmədanini elm və təqvası ilə özünə nümunə götürərək İslami elmlərdə üstün mərtəbəyə çıxmağa nail olmuşdur. Yəsəvi təriqətinin təməlindəki qaydaların Yusuf Həmədani tərəfindən müəyyən edildiyi qəbul edilir. Dövrünün bütün elmlərini mənimsəyən Əhməd Yəsəvi keçən həftə sizə izah etdiyim vəsiyyətə uyğun olaraq irşad məqamının üçüncü sahibi və bir müddət Buxara dərgahının rəhbəri olmuşdur.

Əhməd Yəsəvinin Buxara sufilərinə rəhbərlik dövrünün nə qədər davam etdiyi bilinmir. Buxara dərgahının rəhbərliyini özündən sonra məqam sahibi olacağını Yusuf Həmədaninin bildirdiyi Xoca Əbdülxaliqə verərək Türküstana, ata yurdu olan Yəsi şəhərinə qayıtdığı nəql olunur. Buxara dərgahında altı ay rəhbər olduqdan sonra gördüyü bir yuxu səbəbilə Yəsi şəhərinə qayıtdığı da bildirilir. Əhməd Yəsəvi bundan sonrakı həyatını, vəfat tarixi 1166-cı ilə qədər Türküstan sərhədləri içərisində irşad fəaliyyətləri ilə keçirmişdir.

Yəsi şəhərinə qayıtdıqdan sonra ilk iş olaraq hələ uşaq ikən verdiyi sözü tutmaq, ana və atasının qəbirləri üzərində türbə tikdirmək üçün Sayram şəhərinə getmişdir. Qarasaç Ayşə ana və İbrahim xocanı Sayram əhalisi çox sevdiyi üçün türbənin tikintisində Əhməd Yəsəvidən köməklərini heç əskik etməmişlər. Türbələrin inşası insanlar yardım etdiyi üçün qısa müddətdə başa çatmışdır. Bundan sonra Əhməd Yəsəvi şəhər əmirinin xahişinə baxmayaraq, Yəsi şəhərinə geri qayıtmışdır. Qardaşı Sədrəddinə əmanət etdiyi ailəsinə, başda sevimli bacısı Gövhər Şahnaza qovuşmuşdu.

Əvvəlki mədrəsəni böyüdüb genişləndirmişdi. Xalqın köməyi ilə mədrəsənin yanında bir məscid və hamam da inşa etdirmişdi. Dərgahın mətbəxində yolu dərgaha düşən qəriblərə verilmək üçün

mərcimək şorbası bişirilməsi adəti də başladılmışdı. Qısa müddətdə bir çox diyara şanı yayıldı. Bir çox yerdən ziyarətçiləri, dua istəyənləri gəlib qapısını döyərmişlər. Bəziləri də övladlarını mədrəsə təhsili üçün onun yanında qoymaq istədiklərini bildirərmişlər.

Söhbətin bu yerində kiçik qızı Uluş Nurun yerindən tərpəndiyini görən Çoban ata yaşına görə çox ağıllı uşaq olan qızına söz atmadan dayana bilmədi:

"Nə oldu hər şeyə maraq salan qız? Harada qaldı Yəsəvinin öküzü deyə səbirsizlənirsən, eləmi? Narahat olma, indi növbə sarı öküzə çatır" – dedi və sözünə davam etdi:

Türküstanın piri olan Əhməd Yəsəvi həzrətləri kimsəyə yük olmamağa çalışar, bəzi dərvişlər kimi ətrafdan sədəqə yığaraq keçinməyə çalışmağı xoş qarşılamazdı. Buna görə də tələbələrinə dərs verdikdən sonra qalan boş vaxtlarında dülgərlik edər, ağacdan müəyyən şeylər düzəldərək satar və ailəsinin dolanacağını bu yolla təmin edərdi. Tam bu yerdə Əhməd Yəsəvi həzrətlərinin öküzünün hekayəsi başlayır...

Bu öküzün mənim üçün xüsusi yeri var. Bilirsiniz ki, Əhməd Yəsəvi həzrətlərini çox sevirəm və yeri gəldikcə də bugünkü insanların Əhməd Yəsəvi kimi mürşidlərə ehtiyacı olduğunu dilə gətirirəm.

Yenə insanın öz əl əməyi ilə yaşayışını təmin etməsinin əhəmiyyətini vurğulamaq üçün Əhməd Yəsəvinin dülgərlik etdiyini ifadə edirəm. Bəzi şəxslər nə üçündür bilmirəm, mövzu Əhməd Yəsəvinin öküzünə gəldikdə etiraz edirlər:

"Yəsəvinin öküzünü nə üçün müqəddəsləşdirirsiniz?" – deyə.

Bu öküzün hekayəsini illər əvvəl haradasa oxumuş və ya eşitmişdim. Lakin yazılı mənbələrdə olub-olmadığını, vardısa da, harada yazıldığını bilmirdim. Axırda biri məni çox əsəbiləşdirdi. Bu öküz hekayəsinin hindulardan təsəvvüfə və yəsəviliyə keçdiyini iddia etdi. Buna görə də bu mövzunu araşdırdım və nəhayət, yazılı mənbəsini tapdım. Osmanlı dövründə Gelibolulu Əli olaraq məşhurlaşan tarixçinin 1591-ci ildə qələmə almağa başladığı "Künhul-Əxbar" adlı əsərinin əlli birinci səhifəsində bu hekayəni gördüm. Böyük ehtimal, bu yazılı mənbədə keçən hekayə də insanlar arasında danışılanlardan ibarətdir. Lakin əhəmiyyətli tərəfi odur ki, Əhməd Yəsəvinin dünyadan köçməsindən dörd əsr sonra qələmə alınmışdır.

Gelibolulu Əli Əhməd Yəsəvinin öküzündən belə bəhs etmişdir:

"Xoca Əhməd Yəsəvi həzrətləri həmişə alnının təri və əlinin əməyi ilə keçinərdi. İbadətlərindən artıq qalan zamanlarda dülgərlik edərdi. Keçinmək

üçün bu işdən qazandığını xərcləyərdi. Dərgahına gətirilən sədəqə və nəzirləri ziyarətçi və dərvişlər üçün *istifadə edərdi. Rəvayət olunur ki, Əhməd Yəsəvi dülgərliklə düzəltdiyi əşyaları bir heybəyə doldurduqdan sonra heybəni öküzün üzərinə yükləyərdi. Öküz belinə yüklənənlərlə şəhərin bazarında gəzərdi. Alıcılar* hər nə alarlarsa, *qarşılığını heybənin içinə qoyardılar. O öküz hər gün axşama qədər bu şəkildə bazarda gəzər, sonra Yəsəvinin yanına qayıdardı. Əgər bir kimsə heybədən bir şey aldıqdan sonra qarşılığını verməzsə, vermədiyi* müddətcə öküz onun yanından ayrılmazdı. Yəsəvinin xalqı heyrətə düşürən bir kəraməti, o öküzün hər zaman bu şəkildə bazarda gəzməsi idi".

Yəsəvi ilə əlaqəli bir öküz hekayəsi də türbənin inşası ilə əlaqəli nəql olunur. Əmir Teymur mənəvi cəhətdən rəğbət bəslədiyi Əhməd Yəsəvinin şərəfinə ona layiqli bir türbə inşa etdirməyə niyyət etmişdi. Yəsidəki Əhməd Yəsəvi qəbri üzərində türbənin divarları ucaldılmağa başlandığında qəribə bir hadisə baş vermişdi. Divar ustalarının təməllər üzərində hördükləri kərpic divarlar hər gün yerlə-yeksan edilirmiş. Bu səbəbdən ertəsi gün divarın hörülməsinə sıfırdan başlamalı olurmuşlar. Bu vəziyyətin türbənin inşasına mənfi təsir edəcəyindən və inşaatın tamamlanmasının gecikməsi səbəbindən Əmir Teymurun qəzəbinə uğrayacaqlarından qorxan ustalar çarəsiz qalıblarmış. Divarların

necə dağıldığını öyrənmək istəyən ustalar bir gecə pusquda gözləmişlər. Gecənin qaranlığı çökdükdən sonra iri, bəyaz bir öküzün anidən peyda olub buynuzları ilə ucaldılan divarları dağıtdığını görüb çaşıb qalmışlar. Olanların səbəbinin nə olduğunu soruşduqları bir Allah dostu Əhməd Yəsəvinin Aslan babanın qəbri abadlaşdırılmadan öz qəbri üzərində türbə inşa edilməsinə razı olmadığını söyləmişdi. Bundan sonra ustalar Əmirin inşaatdakı müfəttişinə vəziyyəti başa salmış və öncə Aslan baba türbəsinin təmir edilməsinə qərar vermişlər. Bu müddət ərzində Yəsəvi türbəsinin inşasına fasilə verdilər. Daha sonra həmin türbənin tikintisi davam etdi. Bu dəfə nə divarlar dağılmış, nə də həmin iri, bəyaz öküzü görən olmuşdu.

Çoban ata bu həftəki vəzifəsini tamamlamanın verdiyi qəlb rahatlığı ilə dərin bir nəfəs aldı:

"Və beləcə Yəsəvinin ağıllı öküzünü də bilmiş oldunuz".

Alp-Erkin fürsəti qaçırmadan söhbətə qoşuldu:

"Nə öküzlər imiş, bu zamandakı çox insandan ağıllıymışlar…"

Atası oğlunun bu sevimli, ancaq tamamilə yerində olan müdaxiləsinə rəy bildirmədən sadəcə gülümsəməklə kifayətləndi.

V
HAKİM ATANIN HİKMƏTİ

Çoban ata artıq Əhməd Yəsəvi haqqında hekayələr danışmağa adət etmişdi. Bəhs etmək istədiyi bir hekayə də Əhməd Yəsəvi həzrətlərinin Süleyman adlı tələbəsinə Hakim Ata adını verməsi haqqında idi. Əhməd Yəsəvi haqqındakı söhbətlərin beşincisinin mövzusu Süleyman Hakim Ata olacaqdı.

***

Əhməd Yəsəvi Türküstanda təlim-tərbiyə mərkəzi halına gələn dərgahında böyüklərlə birgə kiçiklərin də təlim-tərbiyəsi ilə məşğul olurdu. Hətta deyilə bilər ki, kiçiklərin təlim-tərbiyəsinə böyüklərdən daha çox əhəmiyyət verirdi. Deməli "Ağac yaş ikən əyilir" atalar sözü o zamanlardan qalmışdır.

Valideynləri tərəfindən gətirilib Əhməd Yəsəviyə əmanət edilən uşaqlar Yəsidəki dərgahda qalaraq təlim-tərbiyə görürdülər. Dərgahın təmizlik

işləri tələbələr tərəfindən yerinə yetirilirdi. Uşaqlar üçün yemək hazırlanması işini Gövhər Şahnazla Əhməd Yəsəvinin Yəsiyə gəldikdə evləndiyi xanımı öz üzərinə götürmüşdü. Qırxa yaxın uşağa gündə iki dəfə yemək hazırlayıb vermək heç də asan iş deyildi. Uşaqlar sıra ilə yemək hazırlanması işinə kömək edirdilər. Hər gün dağdan odun gətirmək lazım gəlirdi. Bu vəzifəni də tələbələrin güclü-qüvvətli olanları öz üzərilərinə götürmüşdü.

Bir gün Buxara dərgahından Əbdülxaliqin göndərdiyi bir buxaralı dərviş Əhməd Yəsəvi ilə birlikdə dərgahın həyətində oturub söhbət edirdi. Yusuf Həmədani haqqında söhbət edərkən qarşılarından bellərində odun dəstələri ilə keçən uşaqları gördülər. Yağış başladığı üçün uşaqlar qaçaraq dərgaha girməyə çalışırdılar. Uşaqlar yaxınlaşdıqda onlardan birinin üzərinin çox nazik olduğunu gördülər. Çünki o, əynindəki paltarla odunları bir-birinə bağlamışdı. Əhməd Yəsəvi bu uşağı dərhal tanıdı: Xarəzmdən gələn bir türkmən qocanın "Bu yetimim sizindir. Ata və anası malyariyadan ard-arda vəfat etdilər, bu balaca da mənim himayəmdə qaldı. Mənimsə, ömrümə az qalıb. Bundan sonra Süleymanın ata və anası sizsiniz" – deyə dərgaha buraxdığı uşaqdı: Xarəzmli Süleyman...

Buxaralı dərviş uşağın üzərindəki paltarı çıxararaq odunları bağlamasına çox təəccüb etmişdi. Dərviş təəccübünü dilə gətirdikdə Əhməd Yəsəvi belindəki odunu diqqətlə yerə boşaldıb bir yerə yığan sevimli və qarayanız uşağı yanlarına çağırdı: "Gəl görüm, Süleyman, sənlə söhbət etmək istəyən bir qonağımız var" – dedi.

Uşaq utana-utana onların yanına yaxınlaşdı. Əvvəlcə tanımadığı qonağın, sonra da mürşidinin əlini öpdü və əl bağlayaraq önlərində ədəblə dayandı.

Buxaralı dərviş: "Başını qaldır, nə üçün yağış yağarkən odunları paltarınla bağladın?" – deyə soruşdu.

Balaca Süleyman danışmaq üçün mürşidinin üzünə baxıb hal dili ilə izin istədi. Yəsəvinin izin verməsindən sonra: *"Əfəndim, dərgaha qonaq gələcəyini bilirdim. Gövhər Şahnaz bibim, heç odun qalmadığını bildirmişdi. Gətirdiyimiz odunlar islanarsa, dərhal alışmaz və yeməyi bişirəcək köz olmaz deyə düşündüm. Buna görə də odunların islanmaması üçün üst paltarımı çıxararaq odunları onunla bükdüm"* – dedi.

Qonaq gələn dərviş hələ on yaşındakı uşaqdan belə cavab, belə düşüncəli hərəkət gözləmir-

di. Buna görə də təəccüblənmişdi. Lakin verilən cavabda Əhməd Yəsəvi həzrətləri üçün təəccüb ediləcək bir vəziyyət yox idi. Süleyman Hakim hələ uşaqlıqdan etibarən kəramətlərinə şahid olduğu Yəsəvi ərənidir. Süleymanın digər uşaqlar arasındakı halı Əhməd Yəsəviyə öz uşaqlığını xatırladırdı. Kiçik yaşda yetim qalmaq uşaqları daha tez yetkinləşdirirdi.

Qonağının yanında uşağı sevindirmək üçün Yəsəvinin o an qəlbinə dolan bu sözlər dilindən töküldü: *"Ey mənim ağıllı oğlum, Süleymanım. Necə də hikmətli, hakimanə* iş görmüsən. Bundan sonra sənin adına Hakim adını da əlavə etdim. İnşallah Süleyman Hakim *Ata olaraq məşhurlaşasan... Sümüklərinə qədər üşüdüyü görünən Süleymana haydı, get bir az isin"* – dedi.

Hakim adı o gündən sonra onun adı ilə bərabər işlədilmişdir. Süleyman Hakim adına uyğun olaraq o gündən sonra hikmət dili ilə danışmış və hərəkət etmişdir. Yəsəvi hikmətləri kimi Süleyman Hakim hikmətləri də türklər arasında məşhurlaşmışdır. Süleyman Hakimin hikmətləri Divanı-Hikmət ilə qarışmasın deyə daha sonrakı dövrlərdə Bakırqan adı ilə nəşr edilmişdir. Qazaxıstana getdiyimdə bu əsərin son dövrlərdə nəşr edilən bir nüsxəsinə rast

gəldiyim üçün dərhal satın almışdım. Kitabxanaya baxsanız, görəcəksiniz.

İlk söylədiyi hakimanə sözləri ağlımda doğru qalmışsa, bu hadisəyə işarə edir:

Köhnə-kürüş geyimim var.
Sınıq-saltaq baltam var.
Pirim oduna göndərsə,
Getməməyə nə halım var.

Geyimimi oduna sarıb,
Bədənim soyuqdan titrəyib,
İçdən məhəbbətim coşub,
Həzrət Sultan Pirim var.

***

Süleyman Hakim Ata Əhməd Yəsəvinin məsləhəti ilə Qaraxanlı Buğra xanlar nəslindən olan Ənbər xanım ilə evlənmişdir. Ondan üç oğlu olmuşdur. İki böyük oğlu Xarəzmin seçkin alimlərindən olmuşlar. Kiçik oğlunun isə atası kimi kəramətlər göstərən vəli olduğu nəql olunur.

Çoban ata, bəlkə uşaqların yuxusu gəlir deyə soruşmaq istədi:

"Uşaqlar, sizə Süleyman Hakim Ata ilə Ənbər xanımın evlənmə hekayəsini, də danışmağımı istəyirsinizmi?"

Uşaqlar sanki sözləşmiş kimi analarına baxdılar və icazə verməsini istədilər. Çoban ata bu hekayənin uşaqlar qədər başı ilə icazə verən xanımı üçün də mənalı olacağını düşünürdü. Çoxdan soyumuş qəhvəsindən son udumlarını aldı və sözünə belə davam etdi:

"Qaraxanın vəziri Abdullah Sadr xanın otlaqlarına gələrək dərgah qurmaq istəyən bir dərvişin xəbərini eşitmiş və yanına gələrək ədəblə: *"Ey dərviş! Kimsən, haradan gəlmisən, adın nədir?"* – deyə soruşmuşdu".

"Ata-anamın mənə verdiyi adım Süleymandır. Lakin indi adıma Süleyman Hakim Ata deyirlər. Xoca Əhməd Yəsəvinin müridiyəm".

Dərvişin kim olduğunu öyrənən vəzir geri qayıdaraq bunu xana xəbər vermişdi. Bunu eşidən xan: *"Vəzirim, bu kimsə əziz birinə oxşayır. Bu kimi əzizlərin duasını diləmək, onlara hörmət etmək lazımdır"* – demişdir.

Buğra xan hörmətlə yanına aldığı bir heyət ilə Süleyman Hakimin yanına gələrək salam verib oturmuşdu. Buğra xanla birgə bütün bəyləri də gələrək

Süleyman Hakim həzrətlərinə bağlanmışlar. Xanın və ətrafındakı bəylərin Süleyman Hakimə bağlanması insanların çoxalaraq onun ətrafında toplanmasına səbəb olmuşdur. Bundan sonra Süleyman Hakim həzrətlərinin şöhrəti insanlar arasında yayılmışdı. Dərgahını qurduğu Bakırqan adlı yeri özünə mərkəz olaraq seçmişdir.

Buğra xanın Ənbər adlı çox gözəl qızı vardı. Buğra xan qızını hörmətini və bağlılığını göstərmək üçün Süleyman Hakim Ata ilə evləndirməyi doğru hesab etmişdir. Qızını öz razılığı ilə Süleyman Hakim ilə evləndirmişdir.

Buğra xan Ənbər adlı qızının cehiz karvanında dəvələri dəvəçi ilə, qoyun və inək sürülərini çobanı ilə gətirib Süleyman Hakim həzrətlərinə təqdim etmişdir. Bu şəkildə başlayan evlilikləri davam edərkən aralarında maraqlı bir hadisə yaşanmışdır.

Çoban ata:

"Bu qismini ananız daha diqqətlə dinləsin" – dedi.

Əhməd Yəsəvinin xələfi olan Süleyman Hakim Ata qaraya yaxın sayılacaq qədər tünd qarabuğdayı idi. Ənbər xanım isə ağ rəngli və gözəl qadın idi. Bir gün Süleyman Hakim yuyunarkən onun bədəninin rəngini görən Ənbər xanım qəlbindən belə

bir düşüncə keçirmişdir. "Mən ki Satuk Buğra xanın nəslindən bir xan qızı idim. Necə oldu ki, bu qarabuğdayı adama gəlin oldum, bu qara adama gəlin olmağımdakı hikmət nə idi? Kaş ki ərim bu qədər qara olmasaydı..."

Süleyman Hakim həzrətləri xanımının bu düşüncəsini anlamış və ona qarşılıq olaraq belə söyləmişdi: *"Sən məni bəyənmirsən, lakin məndən sonra tez bir zamanda dişindən başqa ağ yeri olmayan,* məndə*n daha qara biriylə evlənəcəksən*".

Ənbər xanım düşüncəsinə görə peşman olub ağlamışdı. Lakin artıq iş işdən keçmişdi.

Süleyman Hakim həzrətləri ölüm zamanı yaxınlaşdıqda oğullarını çağırtdırmış və: *"Ölümümdən sonra qırxımda şərqdən qırx dərviş gələcək. Onların içində bir ayağı axsaq, rəngi də qara dərviş olacaq. Ananızı evlənməsi üçün gözləməsi lazım olan müddət bitdikdən sonra o dərvişlə nikahlayın"* – deyə vəsiyyət etmişdir.

Həqiqətən də, Süleyman Hakim həzrətlərinin ölümünün qırxıncı günü dərvişlər gəlmişdir. Lakin içlərində onun dediyi axsaq və qara dərviş yox imiş. Süleyman Hakim həzrətlərinin oğulları həmin dərvişi soruşduqda Zəngi adlı dərvişin ayağı axsadığı üçün arxada qaldığını bildirmişlər. Oğulları ataları-

nın vəsiyyətinə uyğun olaraq analarını həmin dərvişlə nikahlamışlar. Zəngi Ata Ənbər xanımı götürərək Daşkəndə qayıtmışdır.

Sözün bu yerində Çoban ata arxasına yaxşıca yaslandı və sol yanındakı divanda oturan xanımına dönərək:

"Deyə bilərsənmi ki, Süleyman Hakim Ata Ənbər xanımın qəlbindən keçənləri necə anladı?" – deyə soruşdu. Lakin istəmədim ki, sualının cavabını gözləmədən qarşısındakı uşaqlara səsləndi:

"İstəyirsinizsə, o qara dərvişin kim olduğundan gələn həftə bəhs edim. Bu axşam onsuz da yorğun idim. Lakin həftəlik söhbət adətimiz pozulsun. Razılaşdıqmı, uşaqlar?.."

VI
ZƏNGİ ATANIN SÜRÜSÜ

Çoban ata arxasına yaslandı və sözə:

"Deyin görüm, harada qalmışdıq?" – sualı ilə başladı.

Fatimə Dila dərhal ortaya atıldı:

"Bu həftə Zəngi Atadan bəhs edəcəkdiniz, Çoban ata…"

***

Süleyman Hakim Ata Türküstanın Aral gölü yaxınlığındakı bölgələrdə Əhməd Yəsəvinin sağlığında ikən onun icazəsi ilə qurduğu dərgahında İslamı təbliğ edərək təsəvvüflə məşğul olmuşdur. Ömrünün son illərini yaşadığı Xarəzm bölgəsində, Akkurqanda 1186-cı ildə ölümündən sonra inşa edilən türbəsində dəfn edildiyi bilinir. Əhməd Yəsəvinin vəfatından sonra iyirmi il irşad fəaliyyətlərinə davam etmişdir. Mənbələrdə Urgənc bölgəsində irşada başladıqdan sonra *"doxsan beş yaşına qədər*

yaşadığı" və *"beş min müridinin olduğu"* – qeyd olunmuşdur. Bu gün sizə hekayəsindən bəhs edəcəyim Zəngi Ata bunlardan birisidir.

Keçən həftə sizə ən son nədən bəhs etmişdim?

Ənbər xanım ilə Zəngi Ata evlənib Daşkəndə getmişdilər. Keçən həftə mövzu uzanmasın deyə qısa kəsmişdim. Əslində Ənbər xanımın bu qara adamla evlənməyə razı olması o qədər də asan olmamışdır.

Süleyman Hakim Atanın "Məndən daha qara biri ilə evlənəcəksən" – sözünün üzərindən çox keçmədən vəfat etdikdə Zəngi Ata Daşkənddən Xarəzmə gəlmiş, mürşidinin qəbrini ziyarət edərək yaxınlarına başsağlığı diləmişdi. Ənbər xanımın yenidən nikahlana bilməsi üçün müəyyən qədər gözləməsi lazım idi. Bu müddət başa çatdıqdan sonra yaxınlarından birisini Ənbər xanımın yanına göndərərək onunla evlənmək istədiyini bildirmişdi.

Ənbər xanım qəzəblə: *"Mən Süleyman Hakim həzrətlərindən sonra kimsəyə ərə getmərəm!... O ki qaldı, üzü kömür kimi olan belə zənciyə..."* – deyərək bu təklifi rədd etmişdi. Bu sözü dedikdə birdən boynu bükülmüş halda quruyub qalmışdı.

Ənbər xanım bu ağrı ilə qıvranarkən evlənmə təklifini gətirən yaxını dərhal bu vəziyyəti Zəngi Ataya xəbər vermişdi. Zəngi Ata vasitəçiyə: *"Get*

və Ənbər xanıma de ki, məni Zəngi Ata göndərdi və səndən *soruşur: Bir gün kaş ki, ərim belə qara olmasaydı deyə qəlbindən keçirdiyin hissi Süleyman Hakim həzrətləri hiss etmiş* və məndən *sonra daha qarası ilə evlənəcəksən deməmişdimi?"*

Ənbər xanım bu sual qarşısında hər şeyi anlamış və qədərin əmrinə boyun əyərək Zəngi Atanın evlilik təklifini qəbul etmişdir. Evlilik təklifini qəbul etdiyi anda boynundakı ağrılar getmişdi. Bundan sonra Ənbər xanım zənci olan Zəngi Ata ilə evlənmişdir.

Ənbər xanım Zəngi Atanın evində çox çətinliklər çəkmişdir. Lakin bu evlilikdəki hikməti bildiyi üçün səbir etmiş və başqa qadınlara da ərlərinə qarşı səbirli olmalarını tövsiyə etmişdir.

***

Zəngi Atanın böyük Allah dostu olduğunu ətrafında çox insan olmadığı üçün kimsə bilmirdi. Onsuz da özü də yaşayışını otlaqlarda inək sürüləri otlatmaqla təmin edərdi. Zəngi sirrinin ortaya çıxması hadisəsi də çox xoşunuza gələcəkdir... Ondan da bəhs edim.

"Buxarada illərlə təhsil alan dörd tələbə zahiri elmlərlə kifayətlənməyərək mənəvi yolda özlərini yetişdirəcək kamil mürşid axtarmağa qərar verirlər. Buxaradan yola çıxıb Daşkəndə gəlirlər. Daşkənd

otlaqlarından keçərkən bir inək sürüsünün yanında dodaqları qalın bir zəncinin namaz qıldığını görürlər. Bu qəribə zənci ilə söhbət etmək üçün namazını bitirməsini gözləyirlər. Bu qara rəngli çoban Zəngi həzrətləri idi və mənəvi halını insanlardan gizləmək üçün dağ-dərədə inək sürüləri otladardı.

Türküstan türkləri arasında Daşkənd yaxınlığındakı adı ilə anılan təpədə dəfn edilən Çoban Atanın qoyun çobanlarının piri, Zəngi Atanın da inək çobanlarının piri hesab edilməsi bununla əlaqəlidir.

Zəngi həzrətləri inəkləri otladarkən hər qıldığı namazdan sonra yüksək səslə zikrlə məşğul olardı. Tələbələrin onu gördükləri gün də onlara fikir vermədən hər zamankı kimi namazdan sonra zikrlə məşğul olmağa başladı. Bu işin ən təəccüblü tərəfi Zəngi həzrətləri zikrə başlayan kimi inəklərin otlamağı buraxaraq onun ətrafında yığılıb dinləmələri olmuşdur. Belə bir qəribə mənzərəni seyr edən tələbələr Zəngi Atanın zikrini bitirməsini gözlədilər. Zikr bitdikdən sonra inəklər otlamağa başladı və tələbələr yaxına gələrək Zəngi həzrətlərinə salam verdilər.

Buxaradan mürşid axtarmaq üçün oralara qədər gələn bu dörd gənc sonralar Zəngi Atanın sıra ilə dörd böyük xəlifəsi olacaq Uzun Həsən Ata, Seyid Əhməd həzrətləri, Sadr Ata və Bədr Ata idi.

Zəngi həzrətləri gənclərin salamını aldıqdan sonra: "Gənclər, deyəsən, buralara yadsınız. Haradan gəlib haraya gedirsiniz?" – deyə soruşdu.

Gənclər Buxarada mədrəsə təhsili aldıqlarını, indi isə özlərini irşad edəcək bir mürşid axtardıqlarını bildirdilər: *"Biz Buxarada mədrəsə tələbəsi idik. Elmlərin hamısını oxuduq. Birdən içimizə bir atəş düşdü və əqli maneələrdən qurtulub mənəvi yola girmə arzusu qəlbimizi bürüdü. Bu arzu ilə hər şeyi geridə buraxaraq yollara düşdük. İstək və arzumuz bizi kamilliyə aparacaq bir mürşidi-kamil tapmaqdır. Bildiyiniz bir mürşid varsa, bizə onun yerini bildirə bilərsiniz"*.

Zəngi Ata bu səmimi gənclərin üzünə baxıb: *"Bir az dayanın; dünyanın hər yanını yoxlayım. Axtarım və harada mürşidi-kamil qoxusu alaramsa, sizə xəbər verim"* – dedi. Gənclər buna çox sevindilər. Zəngi həzrətlərinin verəcəyi xəbəri gözləməyə başladılar.

Zəngi həzrətləri üzünü dörd bir tərəfə yönəldərək hər tərəfi yoxladı və axırda bütün yönləri yoxladıqdan sonra belə dedi*: "Hər tərəfi yoxladım, sizi irşad etməyə məndən daha səlahiyyətlisi yoxdur"*.

Bu sözlər qarşısında gənclərin dördü də çox təəccübləndilər.

Zəngi Atanın sözlərindən sonra aralarından ən birinci qəlbi bu qəribə çobana isinişən və onu mürşidi olaraq qəbul edib qəlbi ilə ona bağlanan Uzun Həsən oldu.

Sadr da: "Mümkündür ki, qadir olan Allah bu qara adamın qəlbinə irşad nurunu yerləşdirmişdir. Bu mənəvi aləmdir, kim bilir kimin kim olduğunu?" – deyərək dərhal Zəngi Ataya bağlanmağı düşündü.

Gənclərdən Seyid Əhməd ilə Bədr isə zənci çobana dərhal təslim olmayaraq qəlbləri ilə inkara yönəldilər. Gənclərdən Peyğəmbərimizin nəslindən gəldiyi üçün Seyid deyə anılan Əhməd adlı gənc qəlbindən nəsil olaraq seçkin biri olduğunu keçirib bu qara, zənci çobanın özünü irşad etməyə uyğun olmadığını düşündü. Qəlbi razı olmadığı üçün: *"Mən seyid nəslindən elm sahibi bir insan olaraq zənci bir çobana necə bağlana bilərəm?"* – deyə düşündü.

Seyid Əhmədin belə qürurlu olması onun mənəviyyat yolunda irəliləməsini çətinləşdirmişdi. Nəticədə, Ənbər xanıma xahiş edərək Zəngi Atadan üzr istəməsinə vasitəçi olmasını istəmişdir. Ənbər xanım kömək edəcəyini vəd edib: "Sən bu gecə özünü qara bir keçəyə bükərək Zəngi həzrətlərinin yolunun üzərində yat. O, səhər namazına

dəstəmaz almaq üçün çıxdıqda səni görsün və sənə rəhmi gəlsin" – dedi.

Ənbər xanım həmin gecə ərindən mənəviyyat yolunda nə üçün Seyid Əhmədə kömək etmədiyini soruşdu.

Zəngi həzrətləri gülümsəyərək onu ilk gördükdə Seyid Əhmədin qəlbində qürur olduğunu, əsl maneənin həmin duyğu olduğunu bildirmiş və Ənbər xanımın himməti ilə onun ilk qüsurunu bağışladığını bildirmişdir. Seyid Əhməd Ənbər xanımın vasitəçi olması ilə Zəngi Atanın əfvinə və mürşidinin himmətinə nail olduqdan sonra mənəviyyat yolunda sürətlə irəliləmişdir.

Buna görədir ki, Türküstanda bu söz məşhurdur:

Hər gecəni qədir bil,
Hər gördüyünü də Xızır bil...

Bu da Yəsəvi hekayələrinin son qissəsindən hissə olsun…

Çoban atanız olaraq sizdən tək diləyim var: Sizə danışdıqlarımı unutmayın və əgər bir gün övlad sahibi olsanız, mənim nəvələrimə də Əhməd Yəsəvinin bu hekayələrindən bəhs edin. Bilin ki, Çoban atanızın ruhu da o zaman şad olacaqdır.

Söz ruhun şad olmasından düşmüşkən indi də üç ixlas ilə fatihə surələrini oxuyaraq bu hekayələrdə adlarını çəkdiyimiz Peyğəmbərimiz başda olmaqla bütün peyğəmbərlərin, başda Hz. Fatimə (r.anhə) olmaqla Peyğəmbərimizin ailəsinin və əshabının, başda Əhməd Yəsəvi həzrətləri olmaqla bütün Allah dostlarının və başda dədələrimiz olmaqla ailəmizdən axirətə köç edənlərin və son olaraq dua gözləyən bütün mömin və möminələrin ruhlarına hədiyyə edək.

Salonu bir vəsiyyət olduğu açıq şəkildə bilinən sözlərin ağırlığı bürümüş, bütün ailə ixlas və fatihə surələrini oxumağa başlamışdı.

Evin xanımı fatihə surəsini tamamladıqdan sonra ağırlaşan ab-havanı yüngülləşdirmək üçün əllərini bir-birinə vuraraq araya girdi:

“Birdən-birə nə qədər kədərləndik. Haydı qızlar, qalxın. Meyvə tortunun paylanması sizlikdir…”

SON